DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 12 (386) / DEKABR 2023-CÜ İL

# PREZİDENT İLHAM ƏLİYEV ŞUŞADA AŞAĞI GÖVHƏR AĞA MƏSCİDİNDƏ APARILAN BƏRPA İŞLƏRİ İLƏ TANIŞ OLUB




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa şəhərində Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə tanış olub.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Şuşada Heydər Əliyev Fondu tərəfindən ən geniş bərpa işlərindən biri dağıntıların miqyasına uyğun olaraq Aşağı Gövhər Ağa məscidində aparılır. Aşağı Gövhər Ağa məscidi XIX əsrdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib. Tarixi mədəniyyət abidəsi olan Aşağı Gövhər Ağa məscidi işğal dövründə ermənilər tərəfindən vandalizmə məruz qalmışdır. Ötən müddətdə yerli və beynəlxalq ekspertlər məscidin mövcud vəziyyətinə dair qiymətləndirmə və layihələndirmə işləri aparıblar. Buna uyğun olaraq "PAŞA Holdinq"in dəstəyi ilə məsciddə bərpa-təmir işləri həyata keçirilir. Bərpa işləri Avstriya, İtaliya, Latviya və Türkiyədən olan mütəxəssislərin nəzarəti ilə aparılır. Ötən müddətdə məscidin minarələri bərpa olunub, dam və döşəmə örtükləri dəyişdirilməklə bir sıra təmir işləri həyata keçirilib. Məsciddə bərpa-təmir işləri davam edir.

Qeyd edək ki, Heydər Əliyev Fondu Şuşada bir sıra tarixi mədəniyyət abidələrimizin, o cümlədən məscidlərin bərpa və tikinti işlərini həyata keçirir. Artıq bərpası başa çatmış Yuxarı Gövhər Ağa, Saatlı məscidləri bu ilin may ayında istifadəyə verilib. Hazırda Heydər Əliyev Fondu tərəfindən Şuşada Mamayı və Çöl Qala məscidlərində bərpa işləri, o cümlədən Yeni Şuşa məscidinin tikintisi davam edir.

## İSLAM DİNİNƏ AİD İBADƏT YERLƏRİNDƏ (MƏSCİDLƏR) VAKANT VƏZİFƏLƏRİN TUTULMASI ÜÇÜN NÖVBƏTİ MÜSAHİBƏ ELAN EDİLİR

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi İslam dininə aid ibadət yerlərində (məscidlər) aşağıdakı vakant vəzifələrin tutulması üçün müsahibə elan edir:

1. Ağcabədi şəhəri "Cümə" məscidi - İmam
2. Astara rayonu, Kijəbə qəsəbəsi "Lovayın" məscidi - İmam müavini
3. Lənkəran rayonu, Separadi kənd məscidi - İmam müavini
4. Tovuz şəhər məscidi - İmam
5. Xaçmaz şəhəri "Təzə şəhər" məscidi - İmam
6. Qax şəhər məscidi - İmam
7. Bakı şəhəri, Yasamal rayonu "Təzəpir" məscidi - Qadın dini ayinlərin icraçısı

**Müsahibədə iştirak etmək istəyən namizədlər 13 dekabr 2023-cü il tarixindən 13 yanvar 2024-cü il saat 18:00-dək aşağıdakı sənədləri elektron qaydada sened@scwra.gov.az adresinə və ya kağız daşıyıcıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (Bakı şəhəri, Səbail rayonu, Əhməd Cavad küçəsi 16, AZ 1001) təqdim etməlidirlər:**

- Şəxsiyyət vəsiqəsinin surəti və ya bu barədə dövlət informasiya ehtiyatlarından çıxarış;
- Tərcümeyi-hal;
- Dini ali və orta ixtisas təhsil haqqında sənədin notarial qaydada təsdiqlənmiş surəti və ya bu barədə dövlət informasiya ehtiyatlarından çıxarış;
- Sağlamlıq haqqında arayış;
- Narkoloji dispanserdən arayış;
- Ruhi-əsəb dispanserindən arayış;
- Məhkumluq barədə arayış;
- Foto (3x4) (4 ədəd);
- Ərizə.

Tələb olunan sənədlərdən əlavə namizəd özünün elmi-pedaqoji və yaradıcılıq fəaliyyəti barədə sənədləri də təqdim edə bilər.

Müsahibədə iştirakla bağlı sənədlərin qəbulu üçün müəyyən edilmiş son müddət bitdikdən sonra müsahibənin keçirilməsi vaxtı və yeri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin internet saytında yerləşdiriləcəkdir.

Əlaqə nömrələri:
(012) 497 02 53
(012) 492 62 29
(012) 437 31 15
(077) 209 60 70

# DAŞALTI KƏND MƏSCİDİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa rayonunun Daşaltı kənd məscidində tikinti işlərinin gedişi ilə tanış olub.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib.

Azad edilmiş ərazilərimizdə işğal dövründə düşmən tərəfindən dağıdılmış dini-mədəni abidələrimiz bərpa olunur və yeniləri tikilir. Bunlardan biri də Daşaltı kənd məscididir. Daşaltı məscidinin təməli 2021-ci il noyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Hazırda məsciddə, köməkçi binalarda və istinad divarında dəmir-beton və daş hörgü işləri davam edir. Tikinti işlərinin 2024-cü ilin ikinci rübündə başa çatdırılması planlaşdırılır.



# AZƏRBAYCAN RESPUBLİKASINDA 2024-CÜ İLİN "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 dekabr 2023-cü il

# "AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN YANINDA "BAKI İLAHİYYAT KOLLECİ" PUBLİK HÜQUQİ ŞƏXSİN YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 2.5.2-ci yarımbəndinə uyğun olaraq, dini fəaliyyətin təşkili sahəsində ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan İlahiyyat İnstitutu" publik hüquqi şəxsin yanında "Bakı İlahiyyat Kolleci" (bundan sonra - Kollec) publik hüquqi şəxs yaradılsın.

2. Bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə publik hüquqi şəxsin yenidən təşkili və ləğv edilməsi;

2.2. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə bu Qərarın 2.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsi ilə publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

3. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi:

3.1. Kollecin dövlət qeydiyyatına alınması üçün "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

3.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

4. Kollecin fəaliyyətinin təmin edilməsi üçün tələb olunan xərclərin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi zəruri tədbirlər görsün.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi dövlət qeydiyyatına alındığı gündən Kollecin inzibati bina ilə təmin edilməsi məsələsinin həlli barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**Əli Əsədov**
Azərbaycan Respublikasının Baş naziri
Bakı şəhəri, 8 dekabr 2023-cü il
№ 444

# ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri,

İsa peyğəmbərin mübarək mövludu — Milad bayramı münasibətilə Sizi və Sizin simanızda bütün həmməzhəblərinizi ürəkdən təbrik edir, ən səmimi və xoş arzularımı çatdırıram.

Xristian aləminin ən müqəddəs bayramlarından biri, yeniliyin, mərhəmət və şəfqət duyğularının rəmzi olan Milad bayramı insanları yüksək mənəvi ideallar və dəyərlər ətrafında birləşdirərək qəlbləri parlaq ümidlərlə doldurur, yeni nailiyyətlərə ruhlandırır. Yüksək birgəyaşayış mədəniyyəti və çoxəsrlik tolerantlıq mühitinin mövcud olduğu Azərbaycan cəmiyyətində Milad bayramı ölkəmizdə ənənəvi olaraq qeyd olunan dini bayramlar arasında özünəməxsus yer tutur.

Fəxrlə qeyd edirəm ki, bu gün Azərbaycan etnik və dini müxtəlifliyin milli sərvət kimi qorunduğu, bütün konfessiyalar üçün bərabər şəraitin yaradıldığı məkan, dünyada multikulturalizmin ünvanlarından biridir. Ölkəmizdə tarixən olduğu kimi hazırda da əmin-amanlıq, mehribanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayan müxtəlif xalqların və dinlərin nümayəndələri arasında nümunəvi dostluq və qardaşlıq münasibətləri hökm sürür.

Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin, dinlərarası harmoniyanın, dini-mənəvi irsin və multikultural dəyərlərin qorunub-saxlanılması dövlət siyasətimizin başlıca istiqamətlərindəndir. Azərbaycanda xristian inanclı vətəndaşlarımız digər etiqadların mənsubları ilə birgə ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrində yaxından iştirak edir, dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər. Əminəm ki, xristian icması doğma Vətənləri olan Azərbaycanın tərəqqisi və rifahı naminə qüvvə və bacarığını bundan sonra da əsirgəməyəcəkdir.

Azərbaycanın Müqəddəs Taxt-Tac ilə əlaqələrinin yüksələn xətlə və dinamik inkişafı məmnunluq doğurur. Xoşməramlı niyyətlərə xidmət edən ikitərəfli münasibətlərimizin tarixi əlamətdar hadisələr və nailiyyətlər ilə zəngindir. Azərbaycan-Müqəddəs Taxt-Tac əməkdaşlığının inkişafında, konstruktiv dialoqumuzun genişlənməsində Sizin böyük şəxsi töhfənizə, habelə Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə daim verdiyiniz yüksək qiymətə görə Sizə minnətdarlığımı bildirirəm.

İnanıram ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında mövcud olan nümunəvi əməkdaşlıq münasibətləri bundan sonra da sivilizasiyalar arasında qarşılıqlı etimad mühitinin yaradılmasına və ümumbəşəri dəyərlərin təşviqinə xidmət edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizi doğum gününüz və qarşıdan gələn Yeni, 2024-cü il münasibətilə də səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, humanizm ideallarının təntənəsi naminə ali missiyanızda uğurlar diləyirəm.

Hörmətlə,

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 14 dekabr 2023-cü il

# "HEYDƏR ƏLİYEV İRSİ: TOLERANTLIQ VƏ MULTİKULTURAL DƏYƏRLƏR"




Dekabrın 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (Dövlət Komitəsi) təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş "Heydər Əliyev irsi: tolerantlıq və multikultural dəyərlər" mövzusunda konfrans keçirilib.

Konfrans Ulu Öndərin və Vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb.

İctimaiyyət nümayəndələri və din xadimlərinin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Dövlət Komitəsinin sifarişi ilə hazırlanan "Heydər Əliyev və din siyasəti" sənədli filmi nümayiş edilib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "Heydər Əliyev İli" çərçivəsində həyata keçirilən çoxsaylı tədbirlərin Ulu Öndərin irsinin daha geniş şəkildə araşdırılması və gənc nəslə çatdırılmasının önəmi barədə danışıb. Dahi şəxsiyyətin bütün sahələrdə olduğu kimi, dini sahədəki müstəsna xidmətlərinə diqqət çəkən Komitə sədri milli-mənəvi, dini dəyərlərimizə qayıdış, onların təbliği və inkişafında Ümummilli Liderin rolundan, tolerant və multikultural ənənələrə verdiyi önəmdən bəhs edib. Vurğulayıb ki, Heydər Əliyev hələ 1969-cu ildə hakimiyyətə gələndə ölkə ərazisində dini abidələrin, məscidlərin qorunması üçün tapşırıqlar verib, onun təşəbbüsü ilə müstəqil dövlətin ilk milli Konstitusiyasında dini etiqad azadlığı, vicdan azadlığı tam şəkildə təmin edilib, dünyəvilik prinsipi dövlət-din modelinin əsası kimi müəyyənləşib. Heydər Əliyev dövlət-din modelində dünyəviliyi seçməklə tarixən formalaşmış tolerantlıq ənənələrimizin də qorunmasına töhfə verib.

Çıxışında Ulu Öndərin xalqın yaddaşında əbədi olaraq yaşayacağını bildirən M.Qurbanlı müstəqil dövlətimizin siyasətinin Heydər Əliyevin uzaqgörənliyi sayəsində möhkəm, dayanaqlı özüllər üzərində qurulduğunu deyib. Qeyd edib ki, Prezident cənab İlham Əliyevin siyasəti də bu təməllər üzərindədir və bu gün ölkəmiz uğurla inkişaf edir. Bu gün Azərbaycan öz tarixinin ən şərəfli günlərini yaşayır. Prezident cənab İlham Əliyevin qətiyyətli mövqeyi və müdrik siyasəti ilə Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızı erməni tapdağından azad edib, Azərbaycanın suverenliyi bərpa olunub.

Milli Məclisin deputatı Hikmət Məmmədov xalq olaraq illər ötdükcə Ulu Öndərin böyüklüyünü daha aydın dərk etdiyimizi söyləyib. Bildirib ki, istər qazandığımız tarixi Zəfərdə, işğaldan azad olunmuş torpaqlarımıza böyük qayıdış prosesində, istərsə də beynəlxalq münasibətlərdə bu gün fövqəlgüclərin Azərbaycanla hesablaşmasında Heydər Əliyevin əsasını qoyduğu strategiyaların izlərini görürük. Ulu Öndərin hakimiyyət illərini Azərbaycanın intibah dövrü adlandıran millət vəkili qeyd edib ki, dahi Lider xalqımızın dilinə, tarixinə, mədəniyyətinə sahib çıxmaqla, multikultural ənənələri özündə cəmləşdirən, eyni zamanda milli kimliyin dini kimliyə qarşı qoyulmadığı universal dəyərlər sistemi yaradıb. Heydər Əliyevin hakimiyyəti dövründə müasir Azərbaycanda siyasi şüur formalaşıb, ictimai münasibətlər inkişaf edib, ideoloji, müasir çağırışlar milli mənafe ilə uzlaşdırılıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb. Bildirib ki, müstəqil Azərbaycanın memarı, Ümummilli Liderimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişib, müqəddəs ibadət ocaqlarının təmiri və inşası geniş vüsət alıb. "Ümummilli Liderin həyata keçirdiyi siyasətdə tolerantlıq hər zaman diqqət mərkəzində olub. Sevindirici haldır ki, bu siyasət möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir", - deyən S.Salahlı onu da diqqətə çatdırıb ki, Ulu Öndərin Azərbaycanda dövlət-din münasibətlərinin inkişafında, ictimai-siyasi, o cümlədən dini sabitliyin bərqərar olmasında müstəsna xidmətləri olub.

"Heydər Əliyev o şəxsiyyətdir ki, xalqına yüz illər boyu yaşayacaq mənəvi irs miras qoyub", - sözləri ilə çıxışına başlayan Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi yanında İctimai Nəzarət Şurasının üzvü Şahlar Əsgərov Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrü maddi və mənəvi quruculuq illəri olaraq təsnifatlandırıb. Bildirib ki, SSRİ dövründə əsasən nəhəng tikinti-quruculuq layihələrinə, iqtisadi inkişafa daha çox diqqət yetirən Heydər Əliyevin siyasi strategiyasında Azərbaycanın müstəqilliyinə nail olduqdan sonra konstitusion dövlətin formalaşdırılması, azərbaycançılıq ideologiyasının inkişaf etdirilməsi, milli-mənəvi, dini dəyərlərimizə qayıdış məsələləri prioritet istiqamətlərə çevrildi.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov çıxışında Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu müasir azərbaycançılıq ideologiyasının əsasında Azərbaycanda yaşayan xalqların tarixi, mənəvi-əxlaqi, mədəni ənənələr əsasında vahid birliyi ideyasının dayandığını söyləyib. Heydər Əliyevin azərbaycançılıq ideyasının Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, dövlətçiliyimizin qüdrətlənməsində və dövlət quruculuğu prosesində roluna diqqət çəkib. Həmçinin Heydər Əliyev irsinin elmi cəhətdən təhlil edilməsinin zəruriliyini və yeni elmi əsərlər üçün zəmin yaradacaq ideyalarla zəngin olduğunu bildirib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov Ulu Öndərin hakimiyyətə gəlməsi ilə Azərbaycanın SSRİ-nin ən mütərəqqi sənaye dövlətinə çevrilməsi, iqtisadiyyatın inkişaf etdirilməsi, beynəlxalq investisiyaların ölkəmizə cəlb olunması, "Əsrin müqaviləsi"nin imzalanmasından danışıb. Rektor Ümummilli Liderin milli-mənəvi dəyərlərimizin qorunması uğrunda apardığı məqsədyönlü siyasətdən də söhbət açıb. Bildirib ki, Ulu Öndər dini kimliklərin əsla biri-birinə qarşı qoyulmasına icazə vermir, xalqın milli, ən əsası da "Azərbaycan vətəndaşı" kimliyinə hamilik edirdi.

"Zəfər" Şəhid Ailələrinə Dəstək Birliyinin sədri Sevinc Alızadə Heydər Əliyevin fədakar fəaliyyəti sayəsində müstəqilliyimizin ilk illərində cəmiyyətin bütün sahələrində əldə olunan nailiyyətlərdən bəhs edib. Onun ideyalarının gənc nəsil tərəfindən uğurla davam etdirildiyini, Ulu Öndərin azərbaycançılıq ideyasının özünün yenilməz gücünü Vətən müharibəsində bir daha göstərdiyini vurğulayıb. Bu ilin payızında torpaqlarımızda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan antiterror tədbirlərinə də diqqət çəkən S.Alızadə bununla Azərbaycanın bütün ərazilərində öz suverenliyini tam bərpa etdiyini, Xankəndidə, Xocalıda, Ağdərədə və Xocavənddə şanlı bayrağımızın ucaldıldığını söyləyib.

# "PREZİDENT İLHAM ƏLİYEVİN DİN SİYASƏTİ: DİALOQ VƏ ƏMƏKDAŞLIQ"



Dekabrın 21-də müstəqil Azərbaycan dövlətinin memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (Dövlət Komitəsi) təşkilatçılığı ilə keçirilən silsilə tədbirlərin davamı olaraq "Prezident İlham Əliyevin din siyasəti: dialoq və əməkdaşlıq" mövzusunda konfrans keçirilib.

İctimaiyyət nümayəndələri, müsəlman və qeyri-müsəlman dini qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə ərsəyə gətirilən "Müzəffər Komandan" sənədli filmi nümayiş etdirilib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı müstəqilliyimiz bərpa edildikdən sonra Ümummilli Lider Heydər Əliyevin böyük uzaqgörənliklə formalaşdırdığı dövlət-din siyasətinin daha da möhkəmləndiyini bildirərək, son illərdə Azərbaycanın dünya ölkələri sırasında öz layiqli yerini tutması və milli-mənəvi dəyərlərimizin qorunmasında, xüsusilə tolerantlığın və multikultural ənənələrin inkişaf etdirilərək dünyaya çatdırılmasında Prezident İlham Əliyevin xidmətlərinə diqqət çəkib. Vurğulayıb ki, sovet sistemi dağıldığı zaman Azərbaycanda 17 məscid fəaliyyət göstərirdi, 2003-cü ildə onların sayı 1818-ə çatmışdı. Yalnız son 20 il ərzində isə 435 məscid tikilərək istifadəyə verilib və indi ölkə üzrə 2253 məscid var. Eyni zamanda Heydər Əliyev Fondunun dəstəyi ilə yüzlərlə ibadət evi və ziyarətgah təmir və ya bərpa edilib. Həmçinin ölkə ərzasindəki kilsə və sinaqoqlar da diqqətdən kənarda qalmayıb. Bu faktlar dövlət başçısının milli-mənəvi dəyərlərə verdiyi önəmin təzahürüdür. M.Qurbanlı qeyd edib ki, Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, dini sahədə də mühüm nailiyyətlərə imza atıb. Xarici ölkələrdə keçirilən tədbirlərdə, o cümlədən ölkəmizə gələn din sahəsindəki mütəxəssislər Azərbaycanın dövlət-din münasibətləri modelini, burada yaşayan müxtəlif dini nümayəndələrə xüsusi diqqətin olmasını vurğulayırlar. Azərbaycanda müxtəlif dinlərə mənsub insanların birgə yaşayışı və onların ölkəmizdə azad şəkildə dini ibadətlərini yerinə yetirmələri üçün yaradılan şərait yüksək qiymətləndirilir. Komitə sədri Azərbaycan İlahiyyat İnstitutu və nəzdində Bakı İlahiyyat kolleci yaradılmasının önəminə toxunub. Qabaqcıl düşüncəyə malik, müasir dünyamızda gedən prosesləri mükəmməl bilən, elmlə dinin qarşılıqlı əlaqəsini gözəl anlayan, tolerant və multikultural dəyərləri, azərbaycançılıq ideologiyasını mənimsəyən, İslamda vəhdəti təbliğ və təşviq edən, heç bir halda məzhəb ayrı-seçkiliyinə yol verməyəcək kadrlar yetişdirilməsinin əhəmiyyətinə diqqət çəkib. M.Qurbanlı 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsinin əhəmiyyətini vurğulayaraq, Qafqaz Müsəlmanları İdarəsi ilə birgə Özbəkistan, İran, Türkiyə, İspaniya və Rusiyada baş tutan beynəlxalq tədbirləri xatırladıb. Bu gün Azərbaycanın öz üzərinə tarixi missiya götürərək müxtəlif beynəlxalq forumlara, dünya dini liderlərinin sammitlərinə ev sahibliyi, qlobal hərəkata çevrilmiş "Bakı Prosesi"nə rəhbərlik etdiyini, Prezident İlham Əliyevin dövlət-din siyasətinin ölkəmizi dinlər və məzhəblərarası həmrəyliyin nadir nümunəsinə malik bir məkana, milli birlik, mənəvi vəhdət, dini-mədəni müxtəlifliyin unikal nümunəsinə çevirdiyini söyləyib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini, deputat Sahib Alıyev bildirib ki, Prezident İlham Əliyevin dini sahədə həyata keçirdiyi bənzərsiz siyasət özündə konfliktsizlik və harmoniyanı ehtiva etməsi baxımından tək Azərbaycanda deyil, bütün dünyada öyrənilməli və reallaşdırılmalı siyasətdir. Millət vəkili xatırladıb ki, 44 günlük Vətən müharibəsi zamanı din və məzhəb fərqi qoyulmadan hər kəs dəmir yumruq kimi Ali Baş Komandanın ətrafında birləşərək həmrəylik nümayiş etdirdi. S.Alıyev, həmçinin Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən dini ibadət yerlərində - məscid, kilsə, sinaqoqlarda aparılan bərpa-quruculuq işlərindən də danışıb, bu çoxşaxəli fəaliyyətin tək Azərbaycandakı abidələri deyil, dünya mədəni irsi nümunələrini əhatə etdiyini diqqətə çatdırıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev qeyd edib ki, Prezident İlham Əliyev dövlət və din münasibətlərini inkişaf etdirmək üçün yorulmadan səy göstərir. Ölkəmizdə yeni məscidlərin tikilməsi və ya mövcud olanların bərpası, dini icmalara maliyyə yardımlarının göstərilməsi dövlətimizin bu sahəyə xüsusi diqqət və qayğısının bariz nümunəsidir. Bu, Azərbaycanın təkcə son illərdə qazandığı nailiyyətlər deyil, eyni zamanda Ulu Öndər Heydər Əliyevin bünövrəsini qoyduğu siyasi xəttin uğurla davam və inkişaf etdirilməsinin nəticəsidir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov deyib ki, Prezident İlham Əliyevin siyasətinə nəzər saldıqda onun nə qədər çoxşaxəli fəaliyyət istiqamətlərinə malik olduğunu, Ulu Öndər Heydər Əliyev tərəfindən əmanət edilmiş bu siyasi kursu hansı səviyyədə inkişaf etdirərək qlobal müstəviyə çıxardığını görmək mümkündür. Bildirib ki, biz bu gün İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan və Türk dünyası arasında çox sürətli inteqrasiya proseslərini, eləcə də Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad olunmasının Türk dünyasını ruhlandırması və biri-birinə yaxınlaşdırmasını müşahidə edirik. Tək torpaqlarımızın deyil, tarixi-mədəni irsimizin, dini abidələrimizin də işğaldan azad olunduğunu söyləyən R.Həsənov bildirib ki, Qarabağ, Şərqi Zəngəzurda aparılan təmir-tikinti işləri ilk növbədə məhz dini ibadət yerlərin qurulması, bərpa olunaraq insanların istifadəsinə verilməsi ilə bağlı idi.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi, arximandrit Aleksi Nikonorov, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete və Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili öz çıxışlarında Prezident İlham Əliyevin azərbaycançılıq məfkurəsinin ayrılmaz tərkib hissəsi, müxtəlif etnik və dini mənsubiyyət daşıyıcısı olan Azərbaycan vətəndaşlarının mənəvi harmoniya şəraitində bir ailənin üzvləri kimi xoşbəxt yaşamalarını təmin edən multikultural ənənələrimizin qorunub saxlanılmasına göstərdiyi diqqət və qayğı barədə danışıblar. Bildiriblər ki, dövlət başçısının rəhbərliyi ilə Qarabağın dirçəldilməsi yönündə həyata keçirilən genişmiqyaslı quruculuq işləri, məbəd və ibadət məkanlarının yenidən inşa-bərpası onları hədsiz sevindirir. Azərbaycandakı müxtəlif dini konfessiyaların nümayəndələri – dindarlar, din xadimləri fəxr edir və inanırlar ki, Azərbaycanı qalib ölkə, xalqını zəfər çalmış xalq yüksəkliyinə qaldırmış Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətənimiz bundan sonra da yeni zirvələrə yüksələcək, hər zaman uğurlara imza atacaqdır. Din xadimləri multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafına, dini qurumların problemlərinə həssas münasibətinə və özəl qayğısına görə dövlət başçısına dərin minnətdarlıqlarını ifadə ediblər.

Müzakirələrlə davam edən konfransdakı çıxışlarda Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə doğum günü münasibətilə səmimi təbrik və xoş arzular səsləndirilib.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ABŞ-NİN STİRLİNQ FONDUNUN PREZİDENTİ İLƏ GÖRÜŞÜB

Dekabrın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ABŞ-nin Stirlinq Fondunun prezidenti və idarə heyətinin direktoru Mayls Hansen ilə görüşüb.

Görüşdə Dövlət Komitəsinin sədri Azərbaycandakı dinlərarası harmoniya, multikultural və tolerant dəyərlərə verilən önəm, dini etiqad azadlığının yüksək səviyyədə təmin edilməsi barədə danışıb. Həmçinin qeyd edib ki, dünyəvi dövlət olan Azərbaycanın dini konfessiyalara münasibətində bərabərlik prinsipi mütləq mənada qorunur. 37-si qeyri-islam təmayüllü olmaqla dövlət qeydiyyatına alınan 995 dini icmanın fəaliyyətinin dəstəklənməsi istiqamətində ardıcıl tədbirlər görülür. Azərbaycanda dini icmalara maliyyə yardımı göstərilməklə yanaşı, dini ibadət yerlərinin tikilməsi, yenidən qurulması və təmiri işində də fərq qoyulmadan bütün konfessiyalar diqqətdə saxlanılır.

Stirlinq Fondunun prezidenti Mayls Hansen ölkəmizdəki dinlərarası dialoq və əməkdaşlığın çox qiymətli dəyər olduğunu vurğulayıb. Fondun Azərbaycanda həyata keçirdiyi işlərə toxunan qonaq eyni zamanda Briqam Yanq Universiteti ilə Azərbaycan İlahiyyat İnstitutu arasında əməkdaşlığın inkişaf perspektivlərinə diqqət çəkib.

Görüşdə həmçinin sözügedən universitetlər arasında anlaşma memorandumunun imzalanması, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.



# MÜBARİZ QURBANLI: “PREZİDENT İLHAM ƏLİYEV TARİXİ MİSSİYASINI YENİ UĞURLARLA, YENİ ZİRVƏLƏR FƏTH ETMƏKLƏ DAVAM ETDİRƏCƏK”

“Prezident İlham Əliyev tarixi missiyasını yeni uğurlarla, yeni zirvələr fəth etməklə davam etdirəcək”.

Bu fikirləri YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dekabrın 15-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin genişləndirilmiş iclasındakı çıxışında səsləndirib. M. Qurbanlı bildirib ki, Azərbaycan keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub və Prezident İlham Əliyev Heydər Əliyev yolu ilə ölkəmizi çox böyük irəliləyişə aparıb. İstər iqtisadi, siyasi müstəvidə, istərsə də beynəlxalq miqyasda Azərbaycan çox böyük nailiyyətlərə imza atıb. Onun sözlərinə görə, Qarabağın işğaldan azad edilməsi və Azərbaycanın dünya miqyasında bir çox məsələlərdə söz sahibinə çevrilməsi, o cümlədən Qoşulmama Hərəkatında Prezidentimizin rəhbərliyi ilə dünyanı düşündürən bir çox problemlərin BMT səviyyəsində gündəmə gətirilməsi cənab İlham Əliyevin tarixi xidmətləridir: “Bu tarixi xidmətlər, uğurlu missiya davam etməlidir və cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyasının sədri kimi növbəti mərhələdə prezidentliyə namizəd olaraq irəli sürülməsi tarixi zərurətdir. Onun xalq tərəfindən dəstəklənməsi və qələbə qazanması isə aksiomadır. Əminəm ki, Prezident İlham Əliyev tarixi missiyasını yeni uğurlarla, yeni zirvələr fəth etməklə davam etdirəcək. Biz yeni zirvələrin fəthi istiqamətində Prezidentimizin yenidən namizədliyinin irəli sürülməsinə birmənalı şəkildə dəstək verəcəyik”.

M.Qurbanlı qeyd edib ki, Yeni Azərbaycan Partiyası və onun üzvləri Azərbaycan cəmiyyətinin bütün təbəqələrini özündə birləşdirir: “Əminəm ki, yalnız ölkə vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının gözü bu gün Vətəndədir. Çünki Azərbaycan onlar üçün istinad nöqtəsidir, bir mayakdır və Prezident İlham Əliyev də dünya azərbaycanlılarının lideridir. Ona görə də dövlət başçısı İlham Əliyevin yenidən namizədliyinin irəli sürülməsi, qeyd edildiyi kimi, tarixi zərurətdir”.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 100 İLLİK YUBİLEYİ İLƏ ƏLAQƏDAR AĞACƏKMƏ TƏDBİRİ KEÇİRİLİB

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin payız əkin mövsümündə təşkil etdiyi növbəti ağacəkmə tədbiri bu gün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutu, Mənəvi Dəyərlərin Təbliği Fondunun rəhbərliyi və əməkdaşlarının, eləcə də ölkəmizdə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini icmaların rəhbərləri və nümayəndələrinin iştirakı ilə keçirilib.

Yaşıllıqların artırılmasına, ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Müşfiqabad qəsəbəsində keçirilən ağacəkmə aksiyası zamanı Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 700-dən artıq Eldar şamı və zeytun ağacları əkilib.

Ağacəkmə tədbirlərinin keçirilməsində məqsəd Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, Ümummilli Liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdir.

Qeyd edək ki, “Heydər Əliyev ili” çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkil etdiyi ağacəkmə tədbirləri zamanı ölkə ərazisində il ərzində 3 milyondan artıq ağac əkilib.





# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ SUMQAYITDA VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNİ DİNLƏYİB

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dekabrın 14-də Sumqayıt şəhəri, Abşeron və Qubadlı rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub.

Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində keçirilən qəbula gələn vətəndaşlar dini icmaların kitablarla təmin edilməsi, dini təhsil, dini maarifləndirmə işinin genişləndirilməsi, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# DÖVLƏT KOMİTƏSİNİN NÖVBƏTİ “KÖNÜLLÜ FƏALİYYƏT” LAYİHƏSİ İŞƏ BAŞLAYIB

Dekabrın 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) “Könüllü fəaliyyət” layihəsinin yeni könüllü qrupu ilə görüş keçirilib.

DQİDK-nın Aparat rəhbəri Amil Cavadov əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Azərbaycan gəncliyinin tarixi inkişafında müstəsna əhəmiyyətə malik olduğundan, bu gün də bu missiyanı Prezident İlham Əliyevin layiqincə davam etdirərək, dünya miqyasında bir nümunəyə çevirməsindən bəhs edib. Bildirib ki, Prezident İlham Əliyevin gənclər siyasəti sahəsinə göstərdiyi diqqət dövlət başçımızın gələcəyə hesablanmış uğurlu siyasətinin təcəssümüdür.

A.Cavadov DQİDK-nın fəaliyyəti barədə könüllülərə geniş məlumat verərək könüllülük məktəbini gənclər üçün gələcəyə doğru atılmış mühüm addım kimi dəyərləndirib. Qeyd edib ki, müvafiq qanunvericilik bazası olan könüllülük hərəkatı hər bir gəncə özünü ifadə etmək, gələcək karyera üçün təcrübə toplamaq və yeni dostlar qazanmaq imkanı verir.

Komitə rəsmisi könüllü kimi fəaliyyət göstərib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən xüsusi sertifikatlar veriləcəyini, bunun da onların gələcək əmək fəaliyyətinə uğurlu keçid fürsəti olacağını diqqətə çatdırıb.

Görüşün sonunda könüllüləri maraqlandıran suallar cavablandırılıb.



# MÜBARİZ QURBANLI: "ƏSAS MƏQSƏD AZƏRBAYCANDA DİNİ TƏHSİLİN BÜTÜN PİLLƏLƏRİNİ YARATMAQ VƏ KEYFİYYƏTİNİ QALDIRMAQDIR"

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının APA-ya müsahibəsi:***




**- Nazirlər Kabinetinin müvafiq qərarı ilə "Azərbaycan İlahiyyat İnstitutu" publik hüquqi şəxsin yanında "Bakı İlahiyyat Kolleci" publik hüquqi şəxs yaradılacaq. Bu, hansı zərurətdən irəli gəlir?**

- Öncə onu qeyd edim ki, Bakı İlahiyyat Kollecinin yaradılması Azərbaycanda dini təhsil sahəsində önəmli bir qərardır. Çünki Azərbaycanda dövlət ali təhsil müəssisəsi olsa da, orta ixtisas dini təhsili müəssisəsi fəaliyyət göstərmirdi. Ona görə də dini təhsil ancaq ali təhsil pilləsində mövcud idi. Beləliklə, Azərbaycanda dini təhsilin həm orta ixtisas, həm də ali təhsil pilləsi dövlət müəssisəsi tərəfindən həyata keçiriləcək. Bunu zəruri edən digər önəmli məqam isə ondan ibarətdir ki, din sahəsində fəaliyyət göstərən müxtəlif şəxslər var, onların hamısının ali təhsil alması mümkün deyil. Bəzi vəzifələr var ki, onların daşıyıcılarının dini orta ixtisas təhsili alması yetərlidir. Məsələn, dini ayinlərin icraçısı, müəzzin kimi vəzifələri tutmaq üçün dini orta ixtisas təhsilin olması kifayətdir. Deməli, Bakı İlahiyyat Kollecinin məzunları gələcəkdə müəzzin, dini ayinlərin icraçıları olacaqlar. Bu məzunlardan kimsə imam olmaq istəsə, təbii ki ali təhsil almaq üçün Azərbaycan İlahiyyat İnstitutuna müraciət edəcək. Hazırda qarşımızda duran əsas məqsədlərdən biri odur ki, Bakı İlahiyyat Kollecinin gələn ilin sentyabr ayından fəaliyyətini təşkil edək və burada da dini kadrların hazırlanmasına başlayaq.

**- İlahiyyat İnstitutu din xadimlərinin hazırlanması prosesində yetərli deyilmi?**

- Azərbaycan İlahiyyat İnstitutu ali təhsil müəssisəsidir. Qeyd etdiyimiz kimi, ali təhsil müəssisəsi olan Azərbaycan İlahiyyat İnstitutunda əsasən dinşünaslar və islamşünaslar hazırlanır. İslamşünasların məscidlərdə din xadimi kimi fəaliyyət göstərməsi nəzərdə tutulub. Lakin Azərbaycan İlahiyyat İnstitutunun məzunlarının hamısının imam olması və ya bütün din sahəsində fəaliyyət göstərən şəxslərin məhz İnstitutun məzunu olması mümkün deyil. Yuxarıda qeyd etdiyim kimi, elə ixtisaslar var ki, həmin kadrların orta ixtisas təhsili müəssisəsində hazırlanması önəmlidir.

**- Kollecdə tədris necə təşkil olunacaq, bununla bağlı proqram varmı? Orada hansı fənlərin tədrisi nəzərdə tutulur? Təkcə dini fənlər tədris olunacaq, yoxsa dünyəvi fənlər də öyrədiləcək?**

- Azərbaycan İlahiyyat İnstitutunda həm dini, həm də dünyəvi fənlər tədris olunur. Məsələn, Azərbaycan tarixi, eyni zamanda, İslam ölkələri coğrafiyası, ingilis dili, ərəb dili, politologiya və s. kimi dünyəvi fənlər tədris olunur. Bununla yanaşı, Qurani-Kərim, İslam elmləri, Xristianlıq, Yəhudilik və digər dinlərin tarixi də öyrədilir. Eyni qaydada Bakı İlahiyyat Kollecində də həm dünyəvi, həm də dini fənlər tədris olunacaq. Bəri başdan onu qeyd edim ki, kollecə qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçiriləcək. Kollecdə qiyabi təhsil olmayacaq. Dövlət təhsil müəssisəsi olduğu üçün ödənişli təhsildən söhbət gedə bilməz. Eyni zamanda, burada hər hansısa məzhəbə əsaslanan dini təhsil verilməyəcək. Azərbaycan İlahiyyat İnstitutunda olduğu kimi, Bakı İlahiyyat Kollecində də Azərbaycandakı bütün dini reallıqlar, o cümlədən məzhəb reallıqları nəzərə alınaraq tədris həyata keçiriləcək. Həmçinin, əlavə edim ki, qızlar və oğlanlar birlikdə təhsil alacaqlar.

**- İlahiyyat Kollecində başqa dinlərin nümayəndələri də təhsil ala biləcəkmi? Siz ancaq İslam dininə aid ibadət yerlərinə müsabiqə yolu ilə din xadimləri təyin edirsiniz, yoxsa digər dini ibadət yerləri üçün də belə planlar var? Bildiyim qədərilə İlahiyyat İnstitutunda başqa dinlərin xadimlərinin hazırlanması praktikası yoxdur. Kollecdə necə, başqa dinlərin din xadimlərinin – keşişlərin, hahamların hazırlanması prosesi aparılacaqmı?**

- "Dini etiqad azadlığı haqqında" Qanuna əsasən, İslam dininə aid ibadət yerlərinə din xadimləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən təyin olunur. Digər dinlərə mənsub ibadət yerlərinə din xadimləri isə həmin dini icmaların mərkəzləri tərəfindən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə razılaşdırılmaqla həyata keçirilir. O ki qaldı Bakı İlahiyyat Kollecində digər dinlərin nümayəndələrinin təhsil almasına, hələ ki bu nəzərdə tutulmayıb. Gələcəkdə bu məsələyə hansısa formada baxmaq olar. Məsələn, Azərbaycan İlahiyyat İnstitutunda əsasən müsəlman din xadimləri hazırlanır. Bununla belə, İnstitut Alban-udi xristian dini icması ilə birlikdə Qəbələ rayonunun Nic qəsəbəsində kurs təşkil etmişdi və həmin birgə kursun 10-dan artıq məzunu olub ki, onlara sertifikatlar təqdim edilmişdi. Həmin sertifikatlarla Alban-udi xristian dini icmasının üzvləri olan məzunlar keşiş kimi fəaliyyət göstərmək hüququ qazandılar. Ola bilsin ki, gələcəkdə həm İnstitutda, həm də Kollecdə digər dini icmalarla da bu cür kurslar təşkil edilsin.

**- Bundan əlavə də dini təhsil müəssisələrinin yaradılması üçün təklif verilibmi? Gələcəkdə regionlarda da belə kolleclər açılacaqmı?**

- Hazırda əsas diqqətimiz Bakı İlahiyyat Kollecinin formalaşdırılmasına yönəlib. Qarşıda xeyli görüləcək işlərimiz var: Kollecin nizamnaməsinin hazırlanması, qeydiyyata alınması, bina ilə təmin edilməsi, eyni zamanda, gələn ilin sentyabr ayından etibarən tələbə qəbulunun həyata keçirilməsi, pedaqoji kollektivin formalaşdırılması. Bütün bunları həyata keçirmək üçün xeyli zaman lazımdır. Qısa müddət ərzində Bakı İlahiyyat Kollecindən başqa bir kollecin də yaradılması hələlik nəzərdə tutulmur. Lakin növbəti illərdə bu məsələ nəzərdən keçirilə bilər. Təbii ki, mövcud reallıqlar, o cümlədən Bakı İlahiyyat Kollecinin fəaliyyətinin təhlili nəticəsində regionlarda yeni kollecin yaradılmasının nə qədər zəruri olub-olmadığı da müəyyən ediləcək.

**- Bildiyimiz kimi, xaricdə bir sıra mərkəzlər var ki, onlar dini biliklərin artırılmasında mühüm və nüfuzlu yerə malikdirlər. Əgər bundan sonra dini təhsil alan mütəxəssislərimiz xaricdə təhsillərini davam etdirə bilməyəcəklərsə, bu hal dünyada gedən dini proseslərdən kənar qalmağımıza səbəb olmayacaq?**

- Təcrübə onu göstərir ki, xaricdə dini təhsil alan şəxslərin böyük bir qismi məhz xaricdəki dini qrupların təsir dairəsinə düşüb. Təbii ki, bu fikri xaricdə dini təhsil almış hər kəsə aid etmək olmaz. Odur ki, əsas məqsədlərimizdən biri Azərbaycanda dini təhsilin bütün pillələrini yaratmaq və dini təhsilin keyfiyyətini qaldırmaqdır. Eyni zamanda, dini təhsilin bütün pillələrini ödənişsiz həyata keçirməkdir. Azərbaycan İlahiyyat İnstitutunun və Bakı İlahiyyat Kollecinin yaradılmasının əsas məqsədlərindən biri məhz budur. Düşünürük ki, dini ali və ya orta ixtisas təhsil almaq üçün əvvəllər xaricə üz tuturdularsa, indi ali təhsil almaq istəyənlərin Azərbaycan İlahiyyat İnstitutuna, orta ixtisas dini təhsili almaq istəyənlərin isə Bakı İlahiyyat Kollecinə müraciət etmələrini tövsiyə edirik. Bu, ölkədəki dini durumun sabitləşməsi, şəffaflaşması, eyni zamanda, bu sahədəki milli kadrların hazırlanması baxımından da önəmli bir qərardır. O ki qaldı dünyada gedən dini proseslərdən kənar qalmağa, bu tamamilə yanlış fikirdir. Bu gün sürətli qloballaşma prosesi gedir, ümumiyyətlə, dünyadan təcrid olmaq, o cümlədən dünyada gedən dini proseslərdən təcrid olmaq fikri ilə razılaşmaq olmaz. Müasir informasiya texnologiyaları imkan verir ki, hər sahədə olduğu kimi, din sahəsində də dünyada və regionda gedən prosesləri yaxından izləyə bilək.

Bir məqamı da xüsusilə vurğulamaq istəyirəm ki, Azərbaycan İlahiyyat İnstitutu fəaliyyət göstərdiyi bu beş ildə çox uğurlu yol keçib. Azərbaycan İlahiyyat İnstitutunun təhsil səviyyəsi heç də dünyadakı digər dini təhsil ocaqlarından geri qalmır, əksinə, bir çox xüsusiyyətlərinə görə bəlkə də həmin təhsil müəssisələrini üstələyir.

**- Uzun illərdir ümumtəhsil məktəblərində dinin ayrıca fənn kimi tədrisi ilə bağlı müxtəlif təkliflər səsləndirilir. Siz buna necə münasibət bildirərdiniz. Ümumiyyətlə, bununla bağlı Nazirliyə və ya aidiyyəti qurumlara təklif verilibmi?**

- Orta məktəblərdə dinin tədrisindən söhbət gedə bilməz. Bu, Konstitusiyamıza ziddir. Çünki Konstitusiyamıza əsasən, din dövlətdən ayrıdır, eyni zamanda, təhsil dünyəvi xarakter daşıyır. Orta məktəblərdə yalnız dinlər haqqında biliklərin verilməsindən söhbət gedə bilər. Burada da biz yalnız İslamla bağlı bilikləri nəzərdə tutmuruq. Hesab edirik ki, İslam, Yəhudilik, Xristianlıq, ümumiyyətlə, dünyadakı bütün dinlərlə bağlı gənclərə, böyüməkdə olan nəslə dünyagörüşü istiqamətində informasiya verilməsi olduqca önəmlidir. Əgər gənclərimizə bu informasiyanı biz versək, onlar müstəqil həyata qədəm qoyduqdan sonra radikal, xurafatçı dini qrupların təsiri altına düşməzlər. Eyni zamanda, onu da deyim ki, bununla bağlı ayrıca fənnin tədris olunmasına ehtiyac da yoxdur. Bu biliklər tarix, coğrafiya, ədəbiyyat, Həyat bilgisi kimi humanitar fənlərin içərisində yer alır.

**- Dövlət təqaüdü ilə din təhsili almaq üçün gələcəkdə bir qrup gəncin xaricə göndərilməsi nəzərdə tutulurmu? Xaricdə hansısa dini təhsil müəssisələri ilə əməkdaşlıq edilirmi?**

- Hesab edirik ki, dinlə bağlı ilkin təhsil məhz ölkəmizdə alınmalıdır. Azərbaycan İlahiyyat İnstitutunun müxtəlif xarici ölkələrin, xüsusilə Türkiyə, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Rusiyanın müxtəlif ali təhsil müəssisələri ilə əməkdaşlıq memorandumları var. Bu memorandumlara uyğun olaraq, tələbə mübadiləsi həyata keçirilir və gələcəkdə də bu davam etdiriləcək. Ümumi yanaşmamız ondan ibarətdir ki, magistrlər, eyni zamanda, doktorantura təhsili alanlar, habelə müəllimlərimiz dövlət vəsaiti hesabına xarici ölkələrdəki dini mərkəzlərə təcrübə mübadiləsi üçün gedə bilərlər.

**- İlahiyyat Kolleci hansı ölkədə tətbiq olunan modelə əsaslanacaq?**

- Azərbaycan İlahiyyat İnstitutu yaradılarkən biz xarici ölkələrin, xüsusilə yaxın ölkələrin dini təhsil modelini öyrənmişik. Biz xarici ölkələrin dini təhsillə bağlı təcrübəsinin öyrənilməsinin əleyhinə deyilik və həmin təcrübələrdən istifadə edilə bilər. Lakin hansısa xarici ölkənin dini təhsil modelinin ölkəmizdə tətbiqindən söhbət gedə bilməz. Azərbaycanın özünün reallıqları var. Azərbaycanın özünün dövlət-din münasibətləri var. Azərbaycan xalqının özünəməxsus dinə yanaşma tərzi var. Bütün bunlar nəzərə alınmaqla, eyni zamanda, xarici ölkələrin müsbət təcrübəsindən yararlanaraq, orta ixtisas təhsili üzrə öz modelimizin yaradılmasından söz gedə bilər. Kollecin fəaliyyəti təşkil olunarkən bununla bağlı xarici ölkələrdəki dini təhsil müəssisələrinin təcrübəsi bir daha nəzərdən keçiriləcək, onlarla hansısa formada əməkdaşlığımız da təbii ki mümkündür. Çünki biz dini təhsil sahəsində əməkdaşlığa hər zaman hazırıq.

davamı səh. 7

# MÜBARİZ QURBANLI: "ƏSAS MƏQSƏD AZƏRBAYCANDA DİNİ TƏHSİLİN BÜTÜN PİLLƏLƏRİNİ YARATMAQ VƏ KEYFİYYƏTİNİ QALDIRMAQDIR"

əvvəli səh. 6

**- İşğaldan azad edilmiş ərazilərdə dini təhsillə bağlı hansısa planlar varmı?**

- Bu gün işğaldan azad edilmiş ərazilərimizdə geniş quruculuq, abadlıq işləri həyata keçirilir. Təsadüfi deyil ki, işğaldan azad olunmuş torpaqlarımızda ilk tikilən binalar məhz tarixi dini abidələrimizdir. Bu da səbəbsiz deyil. Tarixi dini abidələrimiz xalqımızın tarixi yaddaşı olmaqla yanaşı, həm də mənəvi yaddaşıdır. Biz həmin tarixi dini abidələrin bərpasına həm də mənəvi yaddaşımızın bərpası kimi baxırıq. Buna görədir ki, həmin ərazilərdə Prezident cənab İlham Əliyevin ilk əsasını qoyduğu abidələr məhz məscidlərimizdir. Hazırda Şuşada, Laçında, Zəngilanda, Hadrutda, Suqovuşanda, Ağdamda, Daşaltıda, Füzulidə məscidlərimiz bərpa olunur, məscidlərimiz bərpa olunduqca oraya din xadimləri də təyin olunacaqlar və orada dini təhsil müəssisələrinin yaradılmasını isə gələcək göstərəcək.

**- Din xadimlərinin geyimlərinə toxunmaq istərdim. Bildiyiniz kimi, qonşu dövlətlərdə - Türkiyədə, İranda din xadimlərinin geyimində əbadan da istifadə olunur. Nədənsə, bizim din xadimlərinin geyimində bu element nəzərə alınmayıb. Bunun xüsusi səbəbi var?**

- Hər bir ölkədə din xadimlərinin geyimlərinə nəzər yetirsəniz görərsiniz ki, həmin geyimlərdə həmin ölkələrin xalqlarına məxsus elementlər öz əksini tapır. Bunu Türkiyədə də, İranda da, İraqda da, Misirdə də, hətta Pakistan və İndoneziyada da görə bilərsiniz. Yəni din xadimlərinin fərqli geyim formasının olması normal haldır. Deməк olar ki, bütün müsəlman ölkələrində din xadimlərinin ayrıca bir geyim forması var. Azərbaycanda da din xadimlərinin özünəməxsus geyim forması var, Qafqaz Müsəlmanları İdarəsi bu geyim formasını təsdiqləyib və din xadimlərinin əksəriyyəti bu geyimdən istifadə edir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yeni təyin olunmuş din xadimlərinə tövsiyələrindən biri də məhz geyimlə bağlıdır. Biz din xadimlərinə tövsiyə edirik ki, vəzifə səlahiyyətlərini yerinə yetirərkən onlar məhz bu geyim formasından istifadə etsinlər.

**- Son illərdə torpaqlarımızın işğaldan azad edilməsi ilə Qafqaz Albaniyası irsinə diqqət artıb. Bu baxımdan Azərbaycanda Xristianlığın öyrənilməsi istiqamətində yeniliklər varmı?**

- Əvvəla onu deyim ki, Qafqaz Albaniyası irsinə diqqət 44 günlük Vətən müharibəsindən öncə də var idi. Hər zaman Qafqaz Albaniyası irsinə, o cümlədən Alban avtokefal kilsəsinin yeganə varisi olan Alban-udi xristian dini icmasına xüsusi diqqət və qayğı göstərilib. Bunun nəticəsidir ki, Qəbələ rayonunun Nic qəsəbəsində Alban-udi kilsəsi olan Çotari kilsəsi bərpa olunub. Alban-udi xristian dini icması həm Qəbələ rayonunda, həm Oğuz rayonunda dövlət qeydiyyatından keçib. Hətta müharibənin gedişində, 44 günlük Vətən müharibəsinin gedişində Nic qəsəbəsində Müqəddəs Məryəm Ana kilsəsi Heydər Əliyev Fondu tərəfindən bərpa olunub və istifadəyə verilib. Həmçinin, hər il Prezident cənab İlham Əliyevin Sərəncamı ilə dini konfessiyalara, o cümlədən Alban-udi xristian dini icmasına da dövlət büdcəsindən vəsait ayrılır. Bundan əlavə, işğaldan azad olunmuş torpaqlarımızdakı alban məbədlərinə Alban-udi xristian icmasının mütəmadi səfərləri təşkil olunub. Onlara indiyədək Kəlbəcər, Laçın, Xocavənd, Tərtər rayonlarındakı tarixi alban məbədlərini ziyarət etmələri üçün şərait yaradılıb. Alban irsinin təkcə ölkəmizdə deyil, beynəlxalq səviyyədə də, xarici ölkələrdə təbliğinə diqqət artırılıb. Məsələn, Alban irsi ilə bağlı müxtəlif xarici ölkələrdə, o cümlədən Avstriyada, Polşada, Rusiyada, Belarusda, Gürcüstanda, Türkiyədə müxtəlif səviyyələrdə tədbirlər, görüşlər, sərgilər təşkil olunub.

**- Bizim din xadimlərimizin digər dinlərlə bağlı məlumatlılığının artırılması istiqamətində hansısa təlimlər nəzərdə tutulurmu və ya dini təhsil müəssisələrində təhsil alanlara digər dinlər barədə də məlumatlar aşılanırmı?**

- Azərbaycan İlahiyyat İnstitutunda islamşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə İslamla yanaşı, bütün dinlər, o cümlədən Xristianlıq, Yəhudilik, Buddizm, Hinduizm, hətta yeni dinlər, yeni dini hərəkatlar, İslamda olan dini cərəyanlar, məzhəblər, təriqətlər haqqında geniş məlumat verilir. Hesab edirik ki, azərbaycanlı din xadimi İslamı gözəl bilməklə yanaşı, digər dinlər haqqında da kifayət qədər məlumatlı olmalıdır. Bu belə olacağı təqdirdə, həm Azərbaycan cəmiyyətində nüfuz qazana bilər, həm də İslamı müqayisəli formada təbliğ edə bilər.

## DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ MÜBARİZ QURBANLI "AZƏRTAC"A AÇIQLAMA VERİB



"İşğaldan azad edilmiş ərazilərimizdə tarixi-dini abidələrimizin bərpa prosesi başa çatdıqdan sonra məscidlərə din xadimləri təyin olunur. Din xadimləri Azərbaycan vətəndaşı və dini təhsili olan şəxs olmalıdır. Yalnız müsahibədən keçən şəxslər din xadimi təyinatı ala bilər".

Bu fikirləri "AZƏRTAC"a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib. Komitə sədri vurğulayıb ki, müsahibədən keçməyənlər din xadimi təyinatı ala bilməzlər.

O xatırladıb ki, hazırda işğaldan azad edilmiş ərazilərdə məscidlər bərpa olunur və ya yenidən inşa edilir: "Cari ilin sentyabrında Şuşaya din xadimi təyin olunub. Şuşaya təyin edilmiş din xadimi əslən şuşalı, dini təhsilli şəxsdir". Dövlət Komitəsinin sədri əlavə edib ki, işğaldan azad edilmiş digər ərazilərdəki məscidlər tam istifadəyə verildiyi zaman həmin ərazi üzrə məsul olan qurumun müraciəti əsasında təyinatlar həyata keçiriləcək. Mübariz Qurbanlı həmçinin qeyd edib ki, hazırda ölkə ərazisindəki digər məscidlərə də din xadimlərinin təyin edilməsi istiqamətində işlər davam edir: "Təyinat qəbul olunmuş qaydalar üzrə həyata keçirilir. Belə ki, müsahibə komissiyası indiyə qədər üç dəfə müsahibə keçirib. Ümumən qeyd olunan müsahibələrə 817 sənəd təqdim edilib və 272 nəfər uğur qazanıb".

DQİDK sədri bildirib ki, indiyə qədər 30-a yaxın qadın dini ayinlərinin icraçısı müvafiq məscidlərə təyinatlar alıb. Qadın dini ayinlərinin icraçıları hər hansı dini mərasimi idarə etmirlər: "Belə ki, qadın dini ayinlərinin icraçıları imam funksiyasını yerinə yetirmir. Onlar imamların tapşırığı ilə qadınlar arasında maarifləndirmə işinin təşkilində yaxından iştirak edirlər".

M.Qurbanlı, həmçinin komitənin tərkibində fəaliyyət göstərən attestasiya komissiyasının bu yaxınlarda işini davam etdirəcəyini, eyni zamanda, hazırda fəaliyyət göstərən din xadimlərinin də zaman-zaman attestasiyadan keçiriləcəyini vurğulayıb.

DQİDK sədri "AZƏRTAC"a açıqlamasında qeyd edib ki, dövlətin yas və toy mərasimlərində yol verilən israfçılığı tənzimləməsi üçün ayrıca bir qanun qəbul etməsi nəzərdə tutulmur: "Hesab edirəm ki, bütün bu məsələləri cəmiyyət özü həll etməlidir. Adətlər qanunlarla tənzimlənmir, onları zaman tənzimləyir. Zaman özü bütün adətlərə öz düzəlişlərini edir". O bildirib ki, heç kim hansısa adət-ənənəni yerinə yetirib yetirməməyə görə vətəndaşa cəza müəyyənləşdirməyib: "Mən əminəm ki, insanlar yas mərasimlərində yemək süfrələri qurmağın İslamdan qaynaqlanmadığını başa düşdükcə bu adətdən də uzaqlaşacaqlar. Çünki dəbdəbəli süfrələr açmaq ənənəsi, israfçılıq İslamda yoxdur. Dinimizə görə, hətta bu, günah hesab olunur.

İslamda ehsan gözəl əməl, xeyirxah iş mənasına gəlir. Yemək süfrəsi açmaqla gözəl əməl, xeyirxah iş görmək istəyənlər bunu ehtiyacı olan insanlar üçün etməlidir. Yol çəkmək, bulaq tikmək, kimsəsizə əl tutmaq, ac insanları doydurmaq - əsl ehsan bunlardır. Bu cür xeyirxah əməllər görmək həm vəfat etmiş insanın ruhunu şad edər, həm də insanlara faydalı olar.

Odur ki, bu sahədə maarifləndirmə işi bir an belə dayanmamalıdır. İnsanlara izah edilməlidir ki, şəriət baxımından da doğru olan ehsan anlayışına məhz bu cür yanaşmaqdır".

## İSLAM MALİYYƏSİNƏ DAİR DƏRS VƏSAİTİNİN TƏQDİMATI OLUB



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) ilə Azərbaycan İlahiyyat İnstitutunun (AİI) birgə hazırladığı "İslam maliyyə sistemi və onun Azərbaycandakı perspektivləri" adlı dərs vəsaitinin təqdimatı keçirilib.

Tədbirdə İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov, millət vəkili Ceyhun Məmmədov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev və digərləri təqdimatda çıxış edərək kitabın əhəmiyyətindən danışıblar.

A.Şirinov İİTKM ilə əməkdaşlığın əhəmiyyətindən, eləcə də bu əməkdaşlığın nəticəsi kimi ortaya çıxan dərs vəsaitinin İslam maliyyəsi ilə bağlı məlumatlılığın təmin edilməsindəki rolundan danışıb. Qeyd edib ki, paralel olaraq müvafiq Tədris Proqramı da hazırlanıb və çap edilib ki, bu da dərs vəsaitinin praktiki əhəmiyyətini daha da artırır.

İİTKM-in icraçı direktoru, professor Vüsal Qasımlı İslam maliyyəsinə aid kitabın yazılmasının günümüzün reallığından irəli gələn bir zərurət olduğunu vurğulayıb. O bildirib ki, qlobal biznes trendlərinə cavab verən İslam maliyyə sistemi pulun İslam prinsipləri əsasında idarə edilməsidir: "İslam maliyyəsi iqtisadiyyatın klassik müşküllərindən biri - ədalət, səmərəlilik və azadlıq arasında çözümün yolunu göstərən həllərdəndir. Maraqlıdır ki, İslam maliyyə sektoru Cənub-Cənub, Şimal-Cənub və Üçbucaq əməkdaşlıq formatları daxilində qlobal trendlərə adaptasiya olunur və resursların, bilik və təcrübənin ədalətli bölgüsünü təşviq edir".

Kitabda İslam iqtisadiyyatı, İslam maliyyə sistemi, bu sistemin elementləri və səciyyəvi xüsusiyyətləri kimi məsələlərə aydınlıq gətirilib. Müəlliflər İslam iqtisadiyyatının nəzəri olaraq mahiyyətini və prinsiplərini izah edib, İslam iqtisadiyyatına və İslam maliyyəsinə aid olan "zəkat", "infaq", "qərzi-həsən", "kəffarə" və digər anlayışların sosial-iqtisadi aspektlərini aydınlaşdırıblar.

# SƏYYAD SALAHLI: "MİLLİ-DİNİ BİRLİK HƏM DƏ GÜCLÜ MİLLƏT VƏ DÖVLƏT OLMAĞIN ƏSAS ŞƏRTİDİR"



**Səyyad Salahlı**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini, filologiya üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist*

Çağımızda din sahəsində istər dövlətin, istərsə də cəmiyyətin qarşısında duran ən ümdə vəzifələrdən biri münasibətlərdə dözümlülüyə nail olunması, müxtəlif inanc və mədəniyyətlərə mənsub insanların sülh şəraitində yaşayışının təmin edilməsidir. Çünki cəmiyyətdə dözümsüzlük, fundamentalizm, terror, məzhəbçilik, xurafat, cəhalət, radikalizm, fanatizm və dindən siyasi məqsədlərlə istifadə meylləri baş qaldırarsa, insanlar arasında münasibətlər kəskinləşər və yeni münaqişə ocaqları yaranar.

Dinimizi araşdıranlar yaxşı bilirlər ki, İslam sülhü, əmin-amanlığı, ətrafla mötədil - mülayim, yumşaq, aşırılığa varılmadan davranmağı təbliğ edir. "İslam" kəlməsinin bir mənası məhz sülhdür. Bu kəlmə elə öz özlüyündə sülhün carçısıdır. Sülh dininin radikalizm, o cümlədən, terrorla necə əlaqəsi ola bilər? Bu baxımdan dinimizin qətllə heç bir əlaqəsi yoxdur və ola da bilməz. Çünki Qurani-Kərimdə bir insanın öldürülməsi bütün bəşəriyyətin məhvi ilə müqayisə olunmuşdur: "...hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur..." (Maidə, 32)

Müqəddəs Kitabımız Qurani-Kərimin "əl-Bəqərə" surəsinin 256-cı – "Dində məcburiyyət yoxdur" ayəsi isə lakonik, lakin tam mənada dini dözümlülüyü ortaya qoymuş, müsəlmanları tolerant olmağa, zorakılıqdan qaçmağa, insanları inanclarında sərbəst buraxmağa dəvət etmişdir. Uca Yaradan Həzrət Məhəmmədə (s) "İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?!" (Yunus, 99) deməklə Peyğəmbərlərin belə, insanların inanclarını dəyişdirmək iqtidarında olmadığını bildirmişdir.

İslamın əsas qaynaqları olan ayə və hədislərə nəzər salsaq, belə əxlaqi düsturla qarşılaşırıq: özünə qarşı görmək istəmədiyin münasibəti başqasına qarşı etmə. Qısası, dinimiz bizə digər inancları anlayışla qarşılamağı öyrədir. Əslində, İslam sevgidir, səbrdir, hörmətdir, qarşılıqlı anlayışdır.

Bəhs etdiyimiz ayələrdən, eləcə də hədislərdən anlaşıldığı kimi, İslam mülayimlik, ölçülülük, balanslılıq - bir sözlə, mötədillik dinidir. Bu baxımdan söz və davranışlarımız mötədillik, mülayimlik, ölçülülük, balanslılıq prinsiplərinə uyğun olmalı, ifrat və təfrid arasında balansı qorumalı, əsla həddi aşmamalıyıq. Allah-Təala Quranın bir neçə ayəsində müxtəlif məsələlər, o cümlədən, dini mövzuda həddi aşmamaqla bağlı bizə xəbərdarlıq etmişdir. Həmin ayələrin birində belə buyurulmuşdur: "Ey kitab əhli! Öz dininizdə həddi aşmayın!" (Nisa, 4)

Çünki həddi aşmaq və ya ifrata varmaq insanlara və cəmiyyətə ancaq zərər vurmaqdadır. İfrat və təfrid arasında həddi gözləyərək balansı saxlamağı bacaran şəxs isə heç şübhəsiz, İslamı ən yaxşı anlamış kamil iman sahibidir. Peyğəmbərimiz (s) də məsələ ilə bağlı hədislərinin birində bizə xitab etmiş və belə buyurmuşdur: "Ey İnsanlar! Dində ifrata getməkdən çəkinin. Çünki sizdən əvvəlkiləri dində ifrata varmaq həlak etmişdir" (İM 3029 İbn Macə, Mənasik, 63, N 3059 Nəsai, Mənasikul-həcc, 217).

Möminlərin əmiri Həzrət Əli (ə) də mübarək kəlamlarının birində mötədilliyə həvəsləndirərək buyurmuşdur: "(Həyatda) mötədilliyi öz peşəsi edən kəs yoxsul olmayıb" ("Nəhcül-Bəlağə", s.741).

Çağımızın çağırışlarından olan cəhalət və xurafata qarşı mübarizə məsələsinə gəlincə, əvvəla onu bildirək ki, maarifin fanatizm üzərində zəfər çaldığı tarixdən yaxşı məlumdur və bilik mövhumata qarşı bir sipər, bəşəriyyəti zülmətdən çıxardan və insanlığın yolunu aydınladan bir nurdur. Yalnız təhsil sayəsində bəşər övladının müstəqil düşünməsi, dünyadakı və cəmiyyətdəki prosesləri doğru qiymətləndirməsi mümkündür. Yalnız savad fərdi dar düşüncə tərzindən xilas edərək dünyaya geniş üfüqdən baxmağa imkan verir. Çoxsaylı sosioloji sorğular da təsdiqləyir ki, radikal və ekstremist meyillər, dini-etnik münaqişələr, terror aktları daha çox savadsızlığın hökm sürdüyü cəmiyyətlərdə yayılmışdır. Orta təbəqənin formalaşdığı, təhsil səviyyəsi yüksək və kasıbçılıq göstəricisi aşağı olan dövlətlərdə isə vətəndaşlar liberal dəyərlərə, mötədil dini əqidələrə üstünlük verirlər. Təhsilli cəmiyyət zəmanənin nəbzini tutmağa, dünyada söz sahibi olmağa qadirdir. Onsuz cəmiyyət isə etnik-dini fanatizmin fonunda baş verən münaqişələrin ağuşuna yuvarlanmağa, haqqının çeynənməsinə, ideoloji işbazların oyuncağına çevrilməsinə, bir sözlə, geri qalmışlığa məhkumdur. İntellektual şəxs geniş düşüncəli, şübhəcil və hərtərəflidir. O, hər şeyi təhlil edir, ölçüb-biçir və planetimizdəki rəngarəngliyə təbii yanaşır. Bəşəriyyətdəki fərqlilik, yad fikirlər və adət-ənənələr savadlı adamda qorxu yaratmır. Onun zehin pəncərəsi müasir ideyalara daim açıqdır. Əsl təhsilli şəxsi nəyəsə inandırmaq, kiminsə əlində oyuncağa çevirmək, absurd ideya naminə insanları öldürməyə, yaxud kor-koranə intihara yollamaq müşkül məsələdir.

Bu baxımdan İslam elm öyrənməyi ən vacib əməllərdən saymış və bu zəruri məşğuliyyət sahəsi VII əsrdən başlayaraq getdikcə genişlənən boşluğu doldurmuşdur. Həmin dövrdə Mesopotamiya, Misir, Yunan və Roma mədəniyyətlərinin təsiri azalmışdı. Hindistanın mədəni nüfuzu və təsir dairəsi demək olar ki, yoxa çıxmışdı. Çin mədəniyyəti isə İslamın yaranmasından on il sonra, Tanq Sülaləsi dövründə parlamışdır. İslama qədər Çinin təsiri yalnız qonşuları ilə məhdudlaşırdı. Xüsusən, orta əsrlərdə Abbasilər tərəfindən Bağdadda qurulan "Beytül-Hikmə" tərcümə və araşdırma mərkəzi tərəfindən çağımızdakı müasir elmlərin, xüsusən dəqiq elmlərin təməli atılmışdır. İslamın "Qızıl Çağı" adlanan həmin dövrlərdə İslam mədəniyyəti dünya elm və düşüncəsinə meydan oxumaq dərəcəsinə gəlib çatmışdır.

Görkəmli alman şərqşünası Frans Rozentalın "Elmin zəfəri" adlı kitabında açıq şəkildə ifadə etdiyi kimi, öyrənmə və öyrətmə İslamla vəhdət yaratmışdır (Franz Rosenthal, "Knowledge Triumphant", s.70).

Qurani-Kərimdə təqribən 750 yerdə elm kökündən törəyən sözlər mövcuddur. Müqəddəs Kitabımızda elmin hər növü təriflənmiş, bilənlərlə bilməyənlərin bir ola bilməyəcəyi açıq şəkildə ifadə edilmiş, yalnız ağıl sahiblərinin ibrət alacaqlarına diqqət çəkilmişdir: "Heç bilənlərlə bilməyənlər bir olarmı? Ancaq ağıl sahibləri düşünüb ibrət alarlar" (əz-Zümər, 9).

İslam elmin, alimin və elm yolçusunun dəyərini yüksəltmişdir. Uca Yaradan "Allah içinizdən iman edənlərlə özlərinə elm verilənlərin dəyərini yüksəldər", - deyə buyurur (əl-Mücadələ, 15). Məsələ ilə bağlı onu xüsusən qeyd edək ki, elmlə bağlı vəhy olunmuş bu ayələr Qurani-Kərimin ilk nazil olan ayələridir.

Elmin anlamı, əhəmiyyəti və funksiyası hədislərdə də vurğulanmışdır. İslam ümmətinin qəbul etdiyi dəyərlər sisteminin davamlılığı elmə bağlı olduğu üçün Həzrət Peyğəmbər (s) də elmi uca tutmuş və təşviq etmiş, elmin nafilə ibadətdən daha üstün olduğunu söyləmiş, elm öyrənmək istər kişi, istərsə də qadınlara vacib buyurulmuşdur (Tirmizi, Elm, 19; İbn Macə, Müqəddimə, 17,19).

Quran və Həzrət Məhəmmədin (s) hədislərinin işığında yola çıxan müsəlmanlar sözügedən xüsusda bir çox yenilik və kəşflərə imza atmış və beləliklə, VIII-XIII əsrlərdə İslam mədəniyyətinin yüksəliş dövrü başlamışdır.

Onlar Cəbr (ərəbcə "əlcəbr" - hesab) elminin əsasını qoymuş, hind rəqəmlərindən istifadə etmişlər. Bağdad və Dəməşq şəhərlərində rəsədxanalar açılmışdır. Astronomlar mürəkkəb alətlərdən istifadə edərək Yer kürəsinin təxmini böyüklüyünü hesablaya bilmişlər. Orta Asiya alimi Əl-Biruni Yerin Günəş ətrafında fırlanması ideyasını irəli sürmüşdü, o zaman üçün bu, dahiyanə fərziyyə hesab olunurdu.

Müsəlman səyyahlar Hindistan və Çini təsvir etmiş, Afrikanın və Şərqi Avropanın içərilərinədək gedib çıxmışdılar. İslam dünyasında təbabət də uğurla inkişaf edirdi. Belə ki, İbn Sina (980-1037) dünyada təbib kimi böyük şöhrət qazanmışdı. Onun yüzdən çox elmi əsəri vardır. Şərqdə onu "alimlərin başçısı" adlandırırdılar. İbn Sina yoluxucu xəstəliklər, anesteziya, insanın psixoloji və fiziki durumu arasında əlaqəni kəşf etmiş, yüzlərlə ideyası ilə tibb elminin ehkamlarının əsasını qoymuşdur Onun "Tibb elminin əsasları" kitabı tam 5 əsr boyunca Avropanın ən məşhur universitetlərində dərslik kimi istifadə olunmuşdur.

Müasir dövrdə təəssüf ki, bəzi qruplar dindən və milli mənsubiyyətdən öz siyasi məqsədləri üçün istifadə edir, məzhəbçiliyə can atır, hətta milli və dini kimliyimizi qarşı-qarşıya qoyaraq cəmiyyətdə qarşıdurma yaratmağa can atırlar. Bu baxımdan qarşıda duran ən ümdə vəzifələrdən biri ölkəmizdəki sabitliyin qorunub saxlanılmasıdır. İslama gəlincə, əslində o, cəmiyyətin milli-dini birliyini sarsıtmağa yönələn hər cür təfriqəçiliyi qadağan etmişdir. Çünki xalqların inkişaf və tərəqqisi vəhdət halında yaşamaqdan asılıdır. Birlik və həmrəyliyin olmadığı cəmiyyətlərdə isə parçalanma, kin, nifrət və düşmənçilik hökm sürər. Uca Rəbbimiz Qurani-Kərimin "Ali-İmran" surəsinin 103-cü ayəsində bu xüsusa diqqət çəkmiş, düşmənçilik və çəkişməni oddan olan uçurumun kənarında durmaq kimi xarakterizə etmişdir: "Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən, O, sizin qəlblərinizi (İslam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O, sizi oradan xilas etdi..."

Milli-dini birlik həm də güclü millət və dövlət olmağın əsas şərtidir. Buna görə də milli-dini birliyə yönəlmiş hər cür mənfi fikir və ideyaların yayılmasının qarşısı alınmalıdır. Belə zərərli ideyaların yayılmasında söz və vicdan azadlığından sui-istifadə isə yolverilməzdir. Çünki söz və vicdan azadlığı əslində hər ağıla gələnin söylənilməsi deyil, cəmiyyət üçün faydalı ideyaların irəli sürülməsidir. Bu səbəblə də müsəlman Allah Rəsulunun (s) buyurduğu kimi ya xeyir söyləməli, ya da susmalıdır. Uca Yaradan Qurani-Kərimin "əl-İsra" surəsinin 53-cü ayəsində Həzrət Məhəmmədə (s) xitab edərək buyurmuşdur ki, "bəndələrimə de, gözəl sözlər söyləsinlər, yoxsa şeytan onların arasına fitnə-fəsad salar".

Milli müxtəlifliyə gəlincə, bəşər övladının müxtəlif qəbilə və xalqlara ayrılması bir gerçəklikdir. Məsələnin hikməti isə Allah-Təala Qurani-Kərimdə belə açıqlamışdır: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Bir-birinizlə tanış olasınız deyə sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz, Allah yanında sizin ən dəyərliniz ən təqvalı olanınızdır. Şübhəsiz ki, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır" ("Hucurat", 13).

Anlaşıldığı kimi, insanlar bir-birini tanısınlar deyə müxtəlif millət və qövmlərə ayrılmışdır. Hər xalqın da öz ünsiyyət vasitəsi, mənsubiyyəti, mədəniyyəti və digər dəyərləri vardır. İrqlərin və millətlərin olması, həmçinin, onlar arasında fərqlilik ixtilafa gətirib çıxarmamalıdır. Bu müxtəlifliklərdəki hədəf Uca Yaradanın da buyurduğu kimi, ancaq tanışlıqdır.

davamı səh. 9

# SƏYYAD SALAHLI: "MİLLİ-DİNİ BİRLİK HƏM DƏ GÜCLÜ MİLLƏT VƏ DÖVLƏT OLMAĞIN ƏSAS ŞƏRTİDİR"

əvvəli səh. 8

Həzrət Məhəmmədin (s) səhabələrinə nəzər yetirdikdə onların içərisində müxtəlif millət və irqlərin nümayəndələrinin olduğunu görərik. Məsələn, fars mənşəli Salman əl-Farsi, yunan mənşəli Süheyb, Efiopiya mənşəli - qara dərili Bilal Həbəşi. Həzrət Peyğəmbər (s) həmin şəxslərə olduqca böyük hörmət və ehtiramla yanaşmış, onları yüksək dəyərləndirmiş, ərəb mənşəli səhabələrdən fərqləndirməmişdir.

İslama görə, insanları bir-birindən fərqləndirən meyar zahiri görkəmləri deyil, mənəvi zənginlikləri və təqvadır. Allah Elçisi (s) hədislərinin birində bu cəhətə belə diqqət çəkmişdir: "Ərəbin əcəm üzərində, ağın isə qara üzərində heç bir üstünlüyü yoxdur, üstünlük ancaq təqvaya görədir".

Şübhəsiz ki, millətimizin tarix boyu əldə etdiyi zəfərlərinin təməlində məhz dini və milli birlik dayanmaqdadır. Əsrlərcə xalqımıza hakim olan və əcdadlarımızdan bizə miras qalmış bu qardaşlıq gücümüzə güc qatmış və vətənin hər şeydən üstün tutulmasına səbəb olmuşdur.

Elə 44 günlük Vətən müharibəsində qələbəmizi təmin edən əsas amillərdən biri də məhz Ali Baş Komandanımızın ətrafında sıx birləşərək dəmir yumruq olmağımızdır.

Çağımızın çağırışlarından biri də radikalizm və fundamentalizmlə bağlıdır. Məsələ ilə bağlı iki fərqli yanaşma mövcuddur. Belə ki, bir qrup radikal düşüncəli şəxslər yeniliyə və müasirliyə qarşı çıxaraq tarixin çarxlarını geriyə çevirməyə cəhd edirlər (dini fundamentalistlər, xəvariclər, təkfirçilər və s). Başqa bir qrup isə İslam həqiqətlərini bilməyərəkdən və ya ona qərəzli münasibət bəsləyərək dinimizi irticaçı kimi qələmə verərək onu kabus halına gətirir, hər fürsətdə müsəlmanları qaralamağa çalışırlar (islamofobiya).

Əslində isə İslamla irticanı, müsəlmanla mürtəceni eyniləşdirmək doğru deyildir. Belə ki, dinimiz cəhalətə qarşı çıxaraq elm və mədəniyyətin inkişafına təşviq etmişdir və böyük əksəriyyəti təşkil edən saf, təmizqəlbli müsəlmanlarla İslam adına aşırı hərəkətlər edən kiçik zümrəni də bir-birindən ayırd etmək lazımdır. Çünki din adına cəhalət yayan qisim müsəlmanların çox kiçik hissəsini təşkil edir və onlar İslamın simvolu ola bilməz.

Tarixə nəzər salsaq görərik ki, İslam irticanı ortadan qaldırmaq üçün gəlmiş mədəniyyət və tərəqqi dinidir. O, qaranlıq və mühafizəkar cahiliyyə dövrünə son qoyaraq, bəşər övladına hər iki dünyada xoşbəxt olmağın yollarını göstərmiş, nəinki insanlara, hətta digər canlılara da zülm etməyi qadağan etmişdir. Bu baxımdan hər iki zümrənin iddialarına elmə və həqiqətlərə əsaslanan cavablar verməklə və insanları real düşünməyə sövq etməklə, həm din, həm də cəmiyyət qarşısında üzərimizə düşən vəzifələrimizi yerinə yetirmiş olarıq.

Çağımızda qarşımızda duran ən ümdə, ən vacib məsələlərdən biri qloballaşmanın mənfi təsirlərindən milli-mənəvi dəyərlərimizi qorumaq, onun faydalarından isə bəhrələnməkdir. Belə ki, qloballaşan dünyada cəmiyyət dəyişir, insanlararası münasibətlər tamamilə yeni müstəvidə formalaşır. Təəssüf ki, bu zaman bəzən milli-dini dəyərlərin itirilməsi ilə rastlaşır, istər obyektiv, istərsə də subyektiv səbəblərdən cəmiyyətdə bəzi mənəvi amillərin qiymətinin itirilməsi tendensiyası hiss olunur. Tarix boyu xalqımızın köklü ailə dəyərlərinə, yüksək nəzakət və mədəniyyət potensialına sahib olduğunu bilirik. Allahsızlığın təbliğ edildiyi SSRİ dönəmində belə, böyük-kiçik yeri, xeyirxahlıq, qonaqpərvərlik, başqasının tikəsinə göz tikməmək və s. xüsusiyyətlər xalqımızı "böyük sovet ailəsində" seçilənlərdən etmişdi. Lakin qloballaşma bəzən mədəni özünəməxsusluğun itirilməsi təhlükəsi yaradır.

Qloballaşmanın müsbət yönü isə xalqların dünya sisteminə inteqrasiya prosesinin sürətlənməsi, digər millətlərlə mədəni əlaqələrin genişləndirilməsi və vətəndaşların miqrasiyası ilə bağlıdır. Zənnimcə, sözügedən inteqrasiya proseslərindən və mədəni əlaqələrin genişlənməsindən elmi, texniki, eləcə də texnoloji yeniliklərin öyrənilib tətbiq olunması məqsədilə istifadə olunmalıdır.

Qloballaşmanın güclənməsi isə dünya miqyasında həm qlobal cinayətlər (beynəlxalq miqyasda cinayətkarlıq və terrorizm, narkotik, silah və insan qaçaqmalçılığı və s.), həm də bəzi zərərli vərdişlərin yayılması üçün də şərait yaradır. Zərərli vərdişlərin başında isə ağ ölüm - narkomaniya durmaqdadır. Onun ən faciəvi tərəfi isə sözügedən bəlanın xüsusən gənclər arasında yayılmasıdır. Gənclik insanların həyatında inkişaf və yetkinliyin yaşandığı bir dövrdür. Bu dövr onlarda xəyal dünyası və təxəyyüllərinin cücərdiyi, özlərini sübut etmə istəklərinin meydana gəldiyi çağdır. Bu səbəblə də insanlar gənc çağlarında yad təsirlərə daha tez məruz qalırlar. Bu baxımda cəmiyyətin güc qaynağı, gələcəyin qurucuları olan bu əmanətləri zərərli vərdişlərdən qorumaqla və onları sağlam elmli, əxlaqlı, dürüst, xoş niyyətli və cəmiyyətə faydalı yetişdirməklə çağımızın çağırışlarına ən gözəl şəkildə cavab vermiş olarıq. Gələcəyin ümidi olan elmli, ədəbli və tərbiyəli gənclərə sahib çıxan millətlər sabaha nikbin baxarlar. Elə isə bu milli xəzinəmizi pis təsirlərdən qoruyaraq, xoşbəxt gələcəyə hazırlanaq. Peyğəmbərin (ə) bir hədisində buyurduğu kimi, ixtiyarlar kimi düşünən, nəfsinə məğlub olmayan və qəflət içində boğulmayan gənclər yetişdirməklə qarşımızda duran ən ümdə vəzifəmizi yerinə yetirmiş olarıq.

Qarşıda duran digər çağırış vaxtın dəyərləndirilməsi və zamanın boş, faydasız keçirilməməsi ilə bağlıdır. Təəssüf ki, bu gün bəzi uşaqlar, yeniyetmələr və gənclər faydasız oyun proqramlarının aludəçisi olur, kafe və internet klublarda mənasız vaxt itkisinə yol verirlər.

Vaxtla bağlı o qədər müdrik deyimlər, atalar sözləri, ifadələr var ki, sayı-hesabı bilinməz. Məsələn, zamanın önəmini bildirmək üçün müdriklərimiz "Vaxtı itirsən hədər, görərsən böyük zərər" deməklə onun nə qədər qiymətli olduğunu ustalıqla vurğulamışlar. Zaman həm də görkəmli alim Tomas Edisonun sözü ilə ifadə etsək, ən böyük sərmayədir. Elə görkəmli müsəlman alimi, coğrafiya, tarix, etnoqrafiya, təbiətşünaslıq, riyaziyyat, astronomiya və mineralogiyaya aid 150-dən çox əsərin müəllifi Əbu Reyhan əl-Biruni də bu sərmayəni son nəfəsinədək layiqincə qiymətləndirməkdə sonrakı nəsillərə nümunə olmuşdur. Belə ki, bir gün Əl-Biruni ağır xəstələnir, yaxınları da həkim çağırırlar. Onu müayinə edən həkimlər alimin son günlərini yaşadığını söyləyirlər. Yaxınları vəziyyətinin ümidsiz olduğunu Əl-Biruniyə bildirdikdə o deyir: "Neçə vaxtdır riyaziyyata aid çözə bilmədiyim bir məsələ var. Xahiş edirəm riyaziyyatçıları çağırın, ömrümün son günlərində də olsa, həmin məsələni birlikdə həll edək və mən bu dünyadan rahat köçüm". Alimin son vəsiyyətini yerinə yetirirlər. Bundan sonra Əl-Biruni yaxınları ilə halallaşaraq, dünyadan təbəssümlə köçür.

İtirdiklərimizi qaytarmaq, qüsurlarımızı düzəltmək üçün bu əmanəti layiqincə dəyərləndirək. Doğumla verilən, ölümlə alınan, dəqiqəsi belə itirilməməsi zəruri olan bu müqəddəs əmanətə sahib çıxaq.

*525-ci qəzet*

# MASALLIDA TƏHSİL İŞÇİLƏRİNİN İŞTİRAKI İLƏ MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgələrdə təhsil işçilərinin iştirakı ilə keçirdiyi maarifləndirmə tədbirlərinin davamı olaraq 14-15 dekabr tarixlərində Masallıda ikigünlük regional seminar-treninq baş tutub.

2023-cü ilin sözügedən mövzudakı sonuncu tədbirinə Masallı, Cəlilabad və Yardımlı rayon məktəblərinin direktorları, direktor müavinləri, uşaq birlikləri rəhbərləri, psixoloqları, tarix, ədəbiyyat və həyat bilgisi fənlərini tədris edən müəllimləri qatılıblar. Seminar-treninqdə DQİDK-nın Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova, Azərbaycan İlahiyyat İnstitutunun İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova, Masallı rayonu Təhsil sektorunun əməkdaşı Hörmət Balakişiyev mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Çıxışlar zamanı gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, onlarda vətənpərvərliyin inkişaf etdirilməsi, milli kimliyin aşılanması kimi məsələlərə toxunulub. Bildirilib ki, təhsil vasitəsilə vətəndaşlara hələ yeniyetməlik dövründə vahid proqram əsasında dinlər



haqqında ilkin biliklər verilməsi olduqca zəruridir. Yalnız bu halda yeniyetmələrin sonradan yad təsirlərə məruz qalması ehtimalı məhdudlaşacaq, bütün dinləri əxlaq və mənəviyyat nöqteyi-nəzərindən əxz etmiş gənclərimiz radikal, ekstremist qrupların təsiri altına düşməyəcəklər. Şagirdlərə dünya dinləri, tolerant və multikultural ənənələr, milli-mənəvi dəyərlər, radikalizm və xurafat haqqında məlumatların verilməsinin vacibliyindən də bəhs edən çıxışçılar əlavə ediblər ki, gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, xalqımızın tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyəsinə öz töhfəsini vermək təhsil sahəsində çalışan hər kəsin başlıca amalı olmalıdır.

DQİDK-nın sifarişi ilə çəkilmiş "Azərbaycan gəncliyi və mənəvi dəyərlər" mövzusunda sənədli filmin nümayişi olunduğu tədbirin sonunda müəllimlərlə milli-mənəvi dəyərlərin öyrədilməsi metodları müzakirə edilib, praktiki məşğələlər və qrup işləri aparılıb.

Qeyd edək ki, cari il ərzində DQİDK-nın təşkilatçılığı ilə Gəncə, Lənkəran şəhərlərində, Quba, Göyçay, Balakən, Masallı rayonlarında keçirilən regional seminar-treninqlər respublikamızın onlarla bölgəsindən 1000-ə yaxın təhsil işçisini əhatə edib. Keçirilən tədbirlərin səmərəliliyi və effektiv nəticələri nəzərə alınaraq, seminar-treninqlərin gələn il digər bölgələrdə də davam etdirilməsi nəzərdə tutulur.




# GƏNCƏDƏ YƏHUDİLƏRİN "HANUKA" BAYRAMI QEYD OLUNUB

Dekabrın 13-də Gəncə şəhərində yəhudilərin "Hanuka" bayramı qeyd olunub. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Həsən Məmmədov, müdir müavinləri Elmar Fətəliyev, Faiq Əsgərov, ravvin Rav Pesax Mirov, Yəhudi dini icmasının sədri Arif Babayev və icmanın üzvləri iştirak ediblər.

Dualar oxunub və çıxışlar edilib. Vurğulanıb ki, bu bayram dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda qeyd edilir. O da bildirilib ki, respublikamızda bütün dinlərin və xalqların adət-ənənələrinə hörmətlə yanışılır, dini və milli kimliyindən asılı olmayaraq hər kəs dini inancını sərbəst şəkildə həyata keçirir.

# DÖVLƏT KOMİTƏSİNİN KOLLEKTİVİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT EDİB

*Dekabrın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi Fəxri xiyabanda müstəqilliyimizin memarı, dövlətçiliyimizin xilaskarı Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla yad ediblər.*





# "MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR"







Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda keçirilən üçgünlük regional konfrans növbəti dəfə dekabrın 13-15-də Ağcabədi rayonunda baş tutub.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Ağcabədidəki abidəsi ziyarət edilib, önünə tər güllər düzülüb. Tədbir Dövlət Himninin səsləndirilməsi, ardınca Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin ruhlarının bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Rayonun din xadimləri, idarə, müəssisə rəhbərləri, həmçinin ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Ümummilli Lider tərəfindən əsası qoyulan dövlət-din münasibətlərinin dünyaya nümunə olduğunu diqqətə çatdırıb. Eyni zamanda icra başçısı son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, Ağcabədi rayonunda da dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği istiqamətində görülən işlərdən danışıb.

Daha sonra çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin respublikamızda ictimai-siyasi, o cümlədən dini sabitliyin bərqərar olmasında müstəsna xidmətləri olub. DQİDK rəsmisinin sözlərinə görə, multikulturalizmin fəal şəkildə dəstəklənməsi Azərbaycanın siyasi və sosial-mədəni tarixində silinməz iz qoyan Ulu Öndərin siyasi strategiyasının əsas aspektlərindən birini təşkil edirdi. S.Salahlı bu siyasətin hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.

Sədrin birinci müavini, həmçinin respublikamızdakı mövcud dini durum, dövlət-din münasibətləri, dövlətin dinə qayğısı, Azərbaycanın zəngin tolerantlıq ənənələri barədə də məlumat verib.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, millət vəkili Tahir Rzayev, YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Ramazan Hüseynov da öz çıxışlarında diqqətə çatdırıblar ki, ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələrinin inancına, milli mənsubiyyətinə hörmətlə yanaşılır, eyni zamanda bu dəyərlərin qorunub inkişaf etdirilməsinə şərait yaradılır. Natiqlər ölkə rəhbərliyi tərəfindən dinə və milli-mənəvi dəyərlərimizə daim diqqət və qayğının olduğunu vurğulayıblar.

Konfransın birinci günü kitab sərgisi keçirilib, sənədli film nümayiş olunub və mövzu ətrafında müzakirələr aparılıb.

***

Konfransın rayonda fəaliyyət göstərən dini icmaların nümayəndələri və din xadimlərinin iştirak etdiyi ikinci günündə DQİDK-nın müvafiq olaraq Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev, Ağcabədi bölgəsi üzrə şöbənin müdiri Əlizadə Nəcəfov, Ağcabədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Ceyhun Mamedov, Ağcabədi şəhəri "Cümə" məscidinin imam müavini Zaur Məmmədovun çıxışları dinlənilib.

Çıxışlar zamanı yarandığı gündən etibarən Dövlət Komitəsinin din sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, tolerantlıq ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlərdən bəhs edilib. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasət, əldə edilən uğurlar, ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü göstərir. Fikir, söz və vicdan azadlığı prinsiplərinin qorunmasına, dini azadlıqların təmin edilməsinə yönəlik siyasət yürüdən dövlətimiz bu sahə ilə bağlı bütün səyləri dəstəkləyir. Regionlarda keçirilən çoxşaxəli dini maarifləndirmə tədbirlərinin əhəmiyyətinə də toxunan çıxışçılar dini maarifçilik işinin təşkili, radikalizmlə mübarizə, dini duruma kənar təsirlərin aradan qaldırılması, Azərbaycanın zəngin tolerantlıq ənənələrinin ölkə daxilində və beynəlxalq aləmdə təbliğ edilməsi istiqamətində görülən işlərə diqqət çəkiblər.

Tədbir müzakirələrlə yekunlaşıb.

***

**Dekabrın 15-də üçgünlük regional konfrans öz işini davam etdirib.**

Tədbirin sonuncu günündə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə, Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Xətai Zeynalov, Regional Gənclər İdarəsinin Gənclər sektorunun müdiri Orxan Fəxrəddinov və gənclər iştirak ediblər.

Çıxışlar zamanı bildirilib ki, çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri bu gün də yüksək səviyyədədir və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İnsanların dini inanclarına hörmətlə yanaşmaq, dini mənsubiyyətinə görə insanlar arasında fərq qoymamaq vətəndaş cəmiyyətinin, hüquqi dövlətin əsas əlamətlərindən sayılır. Ölkəmizdə dövlət-din münasibətlərinə həssas nəzarət var, etiqad azadlığı üçün şərait yaradılır, dini dəyərlərə, ibadət yerlərinə xüsusi qayğı göstərilir. Bu gün Azərbaycanda dini etiqad azadlığı tam şəkildə təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər.

Çıxışlar zamanı, həmçinin gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsinin vacibliyi vurğulanaraq, yad təsirlərlə mübarizədə intellektli gəncliyin formalaşması üçün təhsil amilinin, eyni zamanda DQİDK tərəfindən keçirilən maarifləndirmə tədbirlərinin roluna diqqət yetirilib.

Mövzu ətrafında geniş müzakirələr aparılaraq, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# SƏYAVUŞ HEYDƏROV: “ABŞ-NİN BEYNƏLXALQ DİN AZADLIĞI KOMİSSİYASI TƏRƏFİNDƏN TƏQDİM EDİLƏN “NÖQSANLAR” ÖLKƏMİZDƏKİ GERÇƏKLİYİ ƏKS ETDİRMİR”

***Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Din Azadlığı Komissiyasının 5 dekabr 2023-cü il tarixli Azərbaycanla bağlı hesabatı barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun Trend-ə müsahibəsi***




Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Din Azadlığı Komissiyasının 2023-cü il üzrə hesabatında da həmişə olduğu kimi Azərbaycanda “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa edilmiş son illərdəki dəyişikliklər, o cümlədən din xadimi təyinatının Dövlət Komitəsinin səlahiyyətləri sırasına daxil edilməsi, əqidəyə görə həbslərin aparılması, qeyri-müsəlman dini icmaların dövlət qeydiyyatına alınmaması və dini etiqadı yol verməditi halda “Yehovanın şahidləri”nin xidmətə aparılması ilə bağlı fikirlər yenidən gündəmə gətirilir.

**- Sizcə, hesabatda Azərbaycan reallıqlarının təhrif edilməsinin əsl səbəbləri nə ilə bağlıdır?**

- ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyası (bundan sonra Komissiya) tərəfindən təqdim edilən “nöqsanlar” ölkəmizdəki gerçəkliyi əks etdirmir. Əvvəla onu bildirim ki, beynəlxalq səviyyədə dini azadlıqların pozulmasını monitorinq edərək Prezidentə, Dövlət katibinə və Konqresə müvafiq tövsiyələr verməklə məşğul olan bu qurum 1998-ci ildə ABŞ-də müstəqil federal hökumət komissiyası kimi təsis edilmişdir. Yəni ölkəmizin onlar qarşısında cavab vermək kimi hər hansı bir öhdəliyi yoxdur. Ona görə bizim deyəcəklərimiz sadəcə ictimaiyyəti məlumatlandırmaq məqsədi daşıyır.

Komissiyanın hesabatında bəzi məqamların araşdırılmadığı, özlərinin ənənəvi və köhnəlmiş mənbələrindən istifadə edərək, hadisələrə yanlış izahatlar verilməsi görünür. Bu, hesabatın obyektivliyinə şübhə doğurur, ümumiyyətlə, onların hazırlanmasında ifadə edilən məqsəd və məramlara qətiyyən uyğun gəlmir. Məsələn, 2022-ci ilin fevral ayında “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə edilmiş dəyişiklik nəticəsində İslam dininə aid yerlərə din xadimi təyin edilməsinin Dövlət Komitəsinin səlahiyyətinə verilməsi dini etiqad azadlığının məhdudlaşdırılması və dövlətin dinə müdaxiləsi kimi təqdim olunub. Halbuki, ölkəmizdəki İslam dini icmalarının mərkəzi qurumu olan Qafqaz Müsəlmanları İdarəsi (QMİ) həmin dəyişiklikləri dəstəklədiyinə dair bəyanat vermişdir.

Həmçinin sözügedən dəyişiklik Konstitusiyaya da uyğundur. Çünki “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununa görə din xadimləri yenə də dini məsələlərdə QMİ-yə tabedirlər. Eyni zamanda, dini icmaların dövlət qeydiyyatına alınması, onların təsisçilərinin sırasında dəyişikliklərin edilməsi proseduru asanlaşdırılmışdır. Artıq müsəlman icmalardan bunun üçün dini mərkəzlərindən təqdimat alınması tələb olunmur.

Hesabatda iddia edilir ki, dini icmaların, xüsusilə də xristian dini icmalarının dövlət qeydiyyatına alınmasında guya problemlər, məhdudiyyətlər olduğu üçün 2023-cü ildə müsəlman icması qeydiyyata alınıb, amma xristian qurumları alınmayıb.

Rəsmi olaraq bildirirəm ki, cari il ərzində Dövlət Komitəsinə qeydiyyatla bağlı yalnız müsəlman icmaları müraciət etmişdir ki, onlardan da 2-si (müsəlman) qeydiyyatdan keçmişdir. İndi qeyri-müsəlman icmalarından müraciətlərin yoxluğundan çıxış edərək bizi məhdudiyyətlər yaratmaqda və ya ayrı-seçkilik etməkdə günahlandırmaq yumşaq desək, məntiqsizlikdir.

Mənsublarının sayı 50-dən az olan icmalar da öz dini etiqad azadlıqlarından irəli gələn vəzifələri yerinə yetirə bilər. Ancaq həmin birliklər dini qurum və hüquqi şəxs statusuna malik olmayacaqlar. Yeri gəlmişkən vurğulayaq ki, icmaların qeydiyyatdan keçməsi üçün 50 təsisçinin olması məsələsinin mütəmadi olaraq Azərbaycanda hüquq və azadlıqların məhdudlaşdırılması kimi təqdim olunmasını təəssüflə qarşılayırıq. Belə ki, elə ABŞ Dövlət Departamentinin Beynəlxalq Dini Azadlıq üzrə Ofisinin hesabatına əsasən, dünya ölkələrinin bir çoxunda, o cümlədən Xorvatiya (500 nəfər), Rumıniya (300 nəfər), Serbiya (100 nəfər), Yunanıstan (300 nəfər), Bosniya və Herseqovina (30 nəfər), həmçinin Ermənistanda (200 nəfər) tətbiq olunan bu təcrübənin yalnız Azərbaycan timsalında qabardılmasını ayrı-seçkilik kimi qiymətləndiririk.

Eyni zamanda, qanunun tələbini yerinə yetirə bilməyən, yəni 50 nəfərdən az üzvü olan xristian icmalara öz əqidədaşlarının qeydiyyatdan keçmiş icmaları ətrafında birləşmələri və sərbəst fəaliyyət göstərmələri tövsiyə edilib.

“Yehovanın şahidləri” dini icmasına bağlı olan şəxslərin cəlb edilməsi məsələsinə gəlincə, Azərbaycan Respublikasının Konstitusiyasının 76-cı maddəsinə görə vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda bu xidmətin alternativ xidmətlə əvəz olunması təsbit edilib. Lakin geosiyasi durum və bu haldan bəzi saxta icma üzvlərinin “yararlanmaq” cəhdləri nəzərə alınaraq, o cümlədən Azərbaycan Silahlı Qüvvələrinin sıravi heyətinin müddətli hərbi qulluqçulardan təşkil edilməsi səbəbindən alternativ xidmətlə bağlı müvafiq qanunun qəbul edilməsi hələlik məqsədəuyğun hesab olunmur. Cinayət Məcəlləsinin 321-ci maddəsinə əsasən qanuni əsas olmadan hərbi xidmətdən yayınmağa, yəni növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırmağa görə cəza müəyyənləşdirilmişdir.

Nəzərinizə çatdırmalıyam ki, hesabatda adıçəkilən 2022-ci ilin sentyabrında Goranboy rayon məhkəməsi tərəfindən həbs edilmiş “Yehovanın şahidləri” dini icmasına bağlı olan Seymur Məmmədov Gəncə Apellyasiya Məhkəməsinin qərarı ilə 1 (bir) il sınaq müddəti ilə şərti cəza tətbiq edilərək məhkəmə zalından azad olunub. Bununla da, hüquq sahəsində yeni presedent yarandı. Eyni zamanda, bu fakt göstərir ki, hansısa icmaya qarşı sistematik siyasət deyil, qanunvericiliyin tələbi tətbiq olunur. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Bakı şəhəri “Yehovanın şahidləri” dini icması arasında mütəmadi olaraq icmanın fəaliyyəti ilə bağlı müzakirələr aparılır. Bu əlaqələr həm icma, həm də icmanın xarici mərkəzləri tərəfindən müsbət qarşılanır. Bununla bağlı “Yehovanın şahidləri”nin Avropa Assosiasiyası tərəfindən dəfələrlə Dövlət Komitəsinə təşəkkür məktubları ünvanlanmışdır. Üzvlər Bakı şəhəri “Yehovanın şahidləri” dini icmasının qeydiyyatda olduğu ünvanla yanaşı, Bakıdakı əlavə iki ibadət evində, eyni zamanda, ölkə miqyasında bir sıra ünvanlarda öz dini yığıncaqlarını sərbəst və maneəsiz icra edirlər. Həmçinin, icmanın inanc əsasları ilə bağlı dini ədəbiyyatın ölkəyə idxalına və istifadəsinə heç bir məhdudiyyət tətbiq edilmir. Məlumat üçün bildiririk ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna ayrılan vəsaitdən həmin icmaya ötən dörd il ərzində olduğu kimi, 2023-cü ildə də müvafiq olaraq maliyyə yardımı edilmişdir.

**- Hesabat üzərində xüsusi dayanılan məsələlərdən biri də MBH üzvləri sayılan şəxslərin məsələsidir. Onlar “dini fəal” və “vicdan məhbusu” adlandırılır. Həmin həbslərə bu cür yanaşma nədən qaynaqlanır?**

- Son dövrlərdə Azərbaycanda müxtəlif ittihamlarla həbs olunan şəxslərin dini əqidəsinin qabardılması, bununla da cəmiyyətdə dini-siyasi mübarizənin olması təəssüratının yaradılması meyilləri artmışdır. Artıq mütəmadi olaraq, müəyyən qüvvələr şəxslərin həbs edilənədək aktiv dini fəaliyyətlə məşğul olduğuna dair informasiya olmadığı halda, cinayət məsuliyyətinə cəlb olunan kimi dini əqidələri ilə bağlı məlumatlar yaymaqla özlərinin fəaliyyətlərini pərdələməyə cəhd edirlər.

Bildirməliyik ki, din adı altında dindən siyasi məqsədlər üçün istifadə edərək Azərbaycana təzyiq göstərməyə çalışan təxribatçı qüvvələr həbs edilmiş şəxslər haqqında “əzabkeş” və “qəhrəman” obrazı yaratmağa, “dini fəal”, “vicdan məhbusu” və digər adlar verməklə cəmiyyətimizdə dini və siyasi qarşıdurma salmağa cəhd edirlər. Həqiqət isə ondan ibarətdir ki, Azərbaycan Respublikası Konstitusiyasına görə, dini mənsubiyyət heç kəsi məsuliyyətdən azad etmir, həmçinin də heç kim əqidəsinə görə həbs olunmur. Din təhdid vasitəsi deyil, bu ad altında gizlənən radikal və ekstremist dairələr ifşa olunmalıdır. Ölkəmizdə hüquq-mühafizə orqanlarının qeyd olunan istiqamətdəki qabaqlayıcı və peşəkar fəaliyyəti təqdirəlayiq hesab olunmalıdır.

**- Hesabatda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində erməni abidələrinin vəziyyəti ilə bağlı narahatlıq ifadə olunur...**

- Fürsətdən istifadə edərək, Komissiya üzvlərini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə dəvət edirik. Belə ki, Azərbaycanda “Dağlıq Qarabağ” adında inzibati ərazi vahidi yoxdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları vardır.

Abidələrlə bağlı sözügedən təşkilatın vaxtilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu dövrdə ərazilərimizdəki tarixi-mədəni və dini abidələrlə bağlı hansısa məlumatına rast gəlməmişdik. Baxmayaraq ki, Azərbaycan dövləti həmişə həmin ərazilərdə xalqımıza məxsus tarixi-mədəni və dini abidələrin erməni silahlı birləşmələri tərəfindən vandalizm aktlarına məruz qalması ilə bağlı dünya ictimaiyyətinə çağırışlar etmişdir. Hətta məscidlərimizin heyvan saxlama yerlərinə çevrilməsi, onların yararsız vəziyyətə salınması, təmir adı altında özgəninkiləşdirilməsi, qədim Azərbaycan dövləti olmuş Qafqaz Albaniyası irsinə aid abidələrin erməniləşdirilməsi, müsəlman qəbiristanlıqlarında insan qalıqlarına qarşı təhqiramiz hərəkətlərə yol verilməsi və bu kimi hallar barədə sübutlar təqdim etmişdir.

Bildiyiniz kimi, 2020-ci ildə 44 günlük müharibədən sonra vəziyyət tamamilə dəyişdi. İşğalın bitməsilə buradakı abidələrin, o cümlədən dini məbədlərin vəziyyəti, onların necə xarabalığa çevrilməsi gerçəkliyi öz təsdiqini tapdı. Təkcə onu demək kifayətdir ki, 67 məsciddən yalnız 2-si yararlı vəziyyətdə idi. Qalanları isə Ermənistan silahlı birləşmələri tərəfindən tamamilə dağıdılmışdır. Amma hələ dünya ictimaiyyətinin bunu obyektiv araşdırması niyyətini müşahidə etməmişik.

Hesabatda Birləşmiş Millətlər Təşkilatının 2023-cü ilin oktyabrında başa çatan Qarabağdakı missiyası tərəfindən “mədəni və ya dini strukturların heç bir ziyan görmədiyi” məlumatı bildirilsə də, hansısa naməlum insan hüquqları təşkilatlarının iddiaları əsas gətirilməklə ali beynəlxalq təşkilatın hesabatına belə skeptik yanaşılması təəccüb doğurur.

**- Sizcə Azərbaycana qarşı belə münasibətin kökündə nə durur?**

- Azərbaycan qarşı mövqenin kökündə əsasən hegemon qüvvələrin siyasi maraqları dayanır. Onların bəziləri insan hüquq və azadlıqlarının müdafiəçisi, bəziləri də dini qoruyucu adı altında digər ölkələrin daxili işlərinə qarışmaqda maraqlıdırlar. Bizim ölkəyə qarşı isə bunların hər ikisi mövcuddur. Əslində onlar öz maraqlarını təmin etməyə çalışırlar. Düşünürəm ki, insan hüquq və azadlıqları, eləcə də din adı altında digər ölkələrin daxili işlərinə müdaxilə edilməsi yolverilməzdir.

davamı səh. 12

# SƏYAVUŞ HEYDƏROV: "ABŞ-NİN BEYNƏLXALQ DİN AZADLIĞI KOMİSSİYASI TƏRƏFİNDƏN TƏQDİM EDİLƏN "NÖQSANLAR" ÖLKƏMİZDƏKİ GERÇƏKLİYİ ƏKS ETDİRMİR"

əvvəli səh. 11

Eyni zamanda, Azərbaycan əleyhinə kampaniyalarda erməni lobbisi aktiv şəkildə iştirak edir. Komissiyanın heyətinə erməni milliyyətindən olan əməkdaşın cəlb edilməsi onun mahiyyətini bir daha sübut edir.

Burada digər bir məsələyə diqqət yetirməyinizi istəyirəm. ABŞ-li hüquq müdafiəçilərinin məlumatlarına görə, son illərdə anti-İslam əhval-ruhiyyəsinin artması 28%-ə, yəni həyəcanverici həddə çatıb. Belə olan halda Komissiyaya öz ölkəsində baş verən problemlərə daha çox vaxt ayırmağı tövsiyə edirik.

**- Reallıqda Azərbaycanda dini vəziyyət necədir? İnsanların dini etiqad azadlığı necə qorunur?**

- Azərbaycan kifayət qədər həssas regionda yerləşir. Müstəqilliyini bərpa etdiyi dövrdən etibarən xarici dini dairələr ölkəmizdə radikal və ekstremist fikirlərin yayılmasında və ideyalarının daşıyıcıları olan qrupların yaradılmasında maraqlı olublar.

Bu gün Azərbaycan dövlətinin, o cümlədən Dövlət Komitəsinin qarşısında duran əsas vəzifə hüququn aliliyi prinsipi əsasında insanların dini etiqad azadlığının təmin edilməsidir. Bu azadlığın təmin edilməsində dini sahədə insanların hüquq və azadlığı, həmçinin ictimai və dövlət təhlükəsizliyinə yönəlmiş təhdidlərin qarşısının alınması mühüm məsələdir. Ölkəmizdə rəsmi qeydiyyatda olan 995 dini qurumun (onlardan 958-i İslam, 37-si isə qeyri-islam (xristian – 26; yəhudi – 8; krişna – 1; bəhai – 2) təmayüllüdür), o cümlədən 2258 məscid, 16 kilsə və 7 sinaqoqun fəaliyyəti üçün hər bir şərait yaradılmışdır.

Qeyd etmək istəyirəm ki, Azərbaycanda dini sahədə, insanların dini etiqad azadlığının təmin edilməsində hər il yeniliklər baş verir. Qanunvericilik bazası mütəmadi təkmilləşdirilir, islahat aparılır və dini icmaların fəaliyyətinə dəstək verilir. Bildiyiniz kimi hər il cənab Prezident İlham Əliyev tərəfindən rəsmi qaydada ölkədəki dini konfessiyalara maliyyə yardımı ayrılır ki, bu yardımın əhatə dairəsi bütün dini icmalara, o cümlədən qeyri-müsəlman icmalarına şamil edilir. Heydər Əliyev Fondu tərəfindən tarixi-mədəni abidələr bərpa olunur, yeni ibadət ocaqları inşa edilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bölgələrə səfər edərkən mütləq həmin ərazidə yerləşən dini ibadət yerlərini ziyarət edir, dindarlarla söhbətlər edir, onları dinləyirlər.

Eyni zamanda, dövlət başçısı tərəfindən işğaldan azad olunmuş ərazilərdəki dini abidələr xüsusi nəzarətə götürülmüşdür. İstisnasız olaraq, həmin ərazilərdə yerləşən dini ibadət ocaqlarının bərpası üçün göstəriş verilmişdir. Artıq Şuşada dağıdılmış bəzi məscidlər, kilsələr bərpa edilmişdir. Şuşada Yuxarı Gövhərağa məscidinə din xadimi təyin edilmişdir.

Həmçinin bildirməliyik ki, neçə illərdir din xadimlərinə dövlət tərəfindən maddi yardımlar olunur. Onların sosial layihələri maliyyələşdirilir. Onlarla birgə tolerantlığı, birgəyaşayışı əks etdirən konfranslar və s. tədbirlər təşkil edilir. Cari ildə Bibliya Cəmiyyəti və digər qeyri-islam dini icmaları tərəfindən Azərbaycanda fəaliyyətdə olan dini konfessiyaların nümayəndələrinin iştirakı ilə Quba, İsmayıllı, Kəlbəcər və s. rayonlara səfərlər təşkil olunub. Belə səfərlər icmalar arasında dostluq və mehribanlıq münasibətlərini möhkəmləndirir.

Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinin inkişaf etdirilməsində, dünyaya yayılmasında mühüm işlər görülür. Xatırladırıq ki, bu məqsədlə Dövlət Komitəsi tərəfindən təkcə ötən il ABŞ-də - Vaşinqtonda "Qlobal sülh və təhlükəsizlik naminə dinlərarası harmoniya" və Belçikada - Brüssel şəhərində "Daha təhlükəsiz dünya naminə dinlərarası və mədəniyyətlərası dialoqun təşviqi" adlı konfranslar təşkil olunub. Beynəlxalq institutlarla, o cümlədən ABŞ-nin adıçəkilən təşkilatı ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirilir, onların rəhbərləri və mütəxəssisləri ilə müxtəlif səviyyələrdə görüşlər keçirilir və fikir mübadiləsi aparılır.

Fürsətdən istifadə edərək, bir daha həmin hesabat müəlliflərini qərəzdən uzaq olmağa və obyektivliyə çağırır, müzakirələrə daim açıq olduğumuzu bildiririk.

# GÜNDÜZ İSMAYILOV: "ERKƏN NİKAHI TƏBLİĞ EDƏN RƏSMİ DİN XADİMİ İŞDƏN AZAD EDİLƏCƏK"



Erkən nikah məsələsinə həm hüquq, həm din, həm də sosial-psixoloji cəhətdən baxıla bilər. Amma əsas olan məsələnin hüquqi tərəfidir. Hüquqi baxımdan isə erkən nikah qanunaziddir. Əslində "erkən nikah" deyimi yoxdur, bu, qanunu pozaraq azyaşlı ilə ailə qurmaq cəhdidir. Odur ki, "erkən nikah" əməli cəmiyyətimizin qırmızı xətti olmalıdır. Dəfələrlə bildirmişik və bir daha bəyan edirik ki, bu məsələdə hansısa güzəştdən və ya laqeydlikdən söhbət gedə bilməz.

Bunu Trend-ə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov deyib.

O bildirib ki, bu məsələ ilə bağlı Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının 23 noyabr 2002-ci ildə verdiyi fətva var.

"Fətvaya əsasən, "dini nikah" mərasimi nikah əqdi dövlət idarəsində qeydiyyata alındıqdan sonra icra edilə bilər. Bu isə o deməkdir ki, rəsmi din xadimi dövlət nikahı olmayan şəxslərə "dini kəbin" kəsə bilməz. Kəsəcəyi təqdirdə işdən azad olunaraq hüquqi məsuliyyətə cəlb edilməlidir. Çünki "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası" var və bu sənəd normativ-hüquqi aktdır.

Həmin Qaydanın 8.1.8 və 8.1.9-cu bəndlərinə görə, hətta erkən nikahı təbliğ edən rəsmi din xadimi işdən azad ediləcək. Dəfələrlə aidiyyəti qurumlardan xahiş etmişik ki, belə faktlar varsa, Dövlət Komitəsinə təqdim edilsin. Biz dərhal araşdırmağa və zəruri tədbirlər görməyə hazırıq. Amma hələ bizə belə bir fakt daxil olmayıb. Bu cür hallara adətən rəsmi din xadimləri yox, "ara mollası" deyilən şəxslər yol verir. Onlara qarşı təəssüf ki, bizim hansısa təsir imkanımız yoxdur. Onlar barəsində qanun çərçivəsində tədbir görülməlidir və görülür də. Məsələn, xatırlayıram ki, rayonlardan birində bu əməlinə görə bir "din adamı" bir neçə ilini həbsdə keçirməli olmuşdu", - deyə o, əlavə edib.

G.İsmayılov əlavə edib ki, hazırda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri dini maarifçilik işinin təşkilidir.

"Erkən nikahla bağlı da geniş maarifləndirmə tədbirlərimiz var. Bu istiqamətdə Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi və digər qurumlarla yaxından əməkdaşlıq edirik. Çalışırıq ki, tədbirlərimizi erkən nikahların daha çox olduğu bölgələrimizdə keçirək.

Onu da qeyd edim ki, erkən nikahları dindarlıqla əlaqələndirmək doğru deyil. "Dindarlığın güclü olduğu bölgələrdə erkən nikahlar daha çoxdur" fikri həqiqəti əks etdirmir. Bunu rəsmi statistika da təsdiqləyir. Məsələn, elə rayonlarımızda erkən nikah hallarına rast gəlirik ki, həmin rayonlarda dindarlıq faizi çox aşağıdır. Bu baxımdan erkən nikah probleminə, bəlkə də, daha çox sosial-iqtisadi məsələ prizmasından yanaşmaq lazımdır.

Son bir ildə Dövlət Komitəsi tərəfindən 30-a yaxın məscidə qadın dini ayinlərin icraçısı təyin olunub. Bu məscidlər respublikamızın, demək olar ki, bütün bölgələrini əhatə edir. Qadın dini ayinlərin icraçıları qarşısında erkən nikahlar barədə konkret tələblər qoyulub. Ümumiyyətlə, məscidlərə təyinat verərkən din xadimlərimizə ilk tapşırıq və tövsiyələrimizdən biri bu olur ki, dini radikalizm və xurafatla yanaşı, qadın hüquqlarına, ailə dəyərlərinə də xütbə və moizələrində xüsusi diqqət yetirsinlər. Yəqin ki, bunu məscidlərə mütəmadi gedən dindarlar da müşahidə ediblər", - deyə o, əlavə edib.

# DÖVLƏT KOMİTƏSİNİN KÖNÜLLÜLƏRİ "AZƏRBAYCAN KÖNÜLLÜLƏRİNİN VI HƏMRƏYLİK FORUMU"NDA TƏMSİL OLUNUBLAR

Dekabrın 13-də Bakı Konqres Mərkəzində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunan və ölkədə fəaliyyət göstərən 3 mindən çox könüllünü bir araya toplayan "Azərbaycan Könüllülərinin VI Həmrəylik Forumu" keçirilib.

Forum çərçivəsində Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə könüllülər il ərzindəki fəal təşəbbüslərinə görə mükafatlandırılıblar. Onların sırasında Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin könüllüsü Emil Qasımov da var.

Qeyd edək ki, könüllülərin il ərzində fəaliyyətlərini diqqət mərkəzində saxlamaq və qiymətləndirmək məqsədilə 5-19 dekabr tarixlərində keçirilən "Azərbaycan Könüllülük Həftəsi 2023" çərçivəsində baş tutan Forum zamanı Karyera Sərgisi də təşkil olunub. Sərgi zamanı könüllülər müxtəlif yerli və xarici şirkətlərin iş imkanları barədə ətraflı məlumat əldə ediblər.



# HİDAYƏT ORUCOVUN "AZƏRBAYCANDA DİN: ƏN QƏDİM DÖVRDƏN BU GÜNƏDƏK" ADLI KİTABI RUS DİLİNDƏ NƏŞR OLUNUB

Görkəmli yazıçı-publisist, ictimai-siyasi xadim Hidayət Orucovun "Azərbaycanda din: ən qədim dövrdən bu günədək" adlı kitabı rus dilində nəşr olunub. Kitab ilk dəfə 2012-ci ildə Azərbaycan dilində çap edilib.

Azərbaycan dinşünaslığında dinlərin tarixini bütövlükdə özündə əks etdirən ilk fundamental monoqrafiya 4 böyük bölmədən ibarətdir. "Qədim və orta əsrlərdə Azərbaycanda dövlət və din münasibətləri", "Yeni dövrdə Azərbaycanda dövlət və din münasibətləri", "Ən yeni dövrdə Azərbaycan Respublikasında dövlət və din münasibətləri" adlı bölmələrdə dövlət-din münasibətlərinin ayrı-ayrı ictimai-siyasi formasiyalar sistemində özünəməxsus keyfiyyətlər qazanaraq böyük intibah dövrü keçməsi, onun müstəqil Azərbaycan Respublikasının timsalında formalaşmış tarixi xronologiyası mükəmməl şəkildə təqdim olunur. Həmçinin nəşr Azərbaycanda dövlət-din münasibətləri tarixi, müxtəlif dinlərin yayılması və onların müasir vəziyyəti, o cümlədən ölkə ərazisində mövcud olan dövlətlərin din siyasəti barədə obyektiv məlumatlar əldə etmək imkanı yaradır.




Əsərin böyük bir hissəsi dövlətin həyata keçirdiyi din siyasəti problemlərinin işıqlandırılmasına həsr edilib. Kitabda Ümummilli Lider Heydər Əliyevin müstəqil milli dövlət quruculuğu sahəsində işləyib hazırladığı din siyasəti, dini etiqad azadlığının təmin olunması, milli-mənəvi dəyərlərimizin qorunması, tarixi, dini abidələrimizin bərpası və dini dözümlülük ənənəsinin möhkəmləndirilməsi sahəsindəki xidmətlərindən geniş söhbət açılıb. Həmin siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi istiqamətində atılan addımlara diqqət yetirilib.

Qeyd edək ki, monoqrafiyaya tarixi-dini məbədlər barədə məlumatlar və fotolar da daxildir. Kitabın redaktorları ilahiyyatçı Gündüz İsmayılov, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov, filologiya üzrə fəlsəfə doktoru Elçin Cabbarov, tərcüməçisi isə Azərbaycanın əməkdar jurnalisti Əli Səidovdur.

Rusdilli oxucu kütləsi üçün nəzərdə tutulan kitab dinlə əlaqəli tədqiqat aparan mütəxəssislər, dinşünaslar, ilahiyyatçılar, eləcə də ali məktəb müəllimləri və tələbələri üçün qiymətli töhfədir.

Kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icması tərəfindən çap olunub.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini dekabr ayı ərzində də davam etdirmişdir.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**

**1 dekabr** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Ucar Rayon İcra Hakimiyyətinin (RİH) təşkilatçılığı ilə Ucar rayonu Küçəkənd kənd tam orta məktəbində "Gəncləri dini radikalizm və zərərli vərdişlərdən qoruyaq" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Füzuli RİH-in təşkilatçılığı ilə Horadiz şəhəri "Əhli-Beyt" məscidində "Dini fanatizm, radikalizm, ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağcabədi RİH-in təşkilatçılığı ilə rayonun Şərəfxanlı kənd tam orta məktəbində "Dini radikalizm və zərərli vərdişlərə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran RİH və rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə Aşağı Nüvədi qəsəbə tam orta məktəbində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Tovuz RİH-in təşkilatçılığı ilə Tovuz rayonunda "Erkən nikah: hüquqi və mənəvi müstəvidə" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Tərtər RİH-in təşkilatçılığı ilə Tərtər rayonunda "Gender əsaslı zorakılıqla mübarizə" mövsusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba RİH-in təşkilatçılığı ilə Quba rayonunda "Ailə institutunun gücləndirilməsinə təhlükə: zərərli vərdişlər" mövsusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Gədəbəy RİH-in təşkilatçılığı ilə rayonun Arıqdam kənd orta məktəbində "Dini radikalizm və ekstremizmin fəsadları və ona qarşı mübarizə yolları" mövzusunda;

**4 dekabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux RİH-in təşkilatçılığı ilə Samux şəhər M.Ə.Sabir adına 1 saylı məktəb-liseydə "Təhsilin dini radikalizmə, xurafata və cəhalətə qarşı mübarizədə rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Ucar RİH-in təşkilatçılığı ilə Ucar rayonunda "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Zəngilan RİH-in təşkilatçılığı ilə Sumqayıt şəhəri ərazisində yerləşən Zəngilan rayonu 11 nömrəli tam orta məktəbində "Milli-dini dəyərlərimiz və vətənpərvərlik" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Mil-Muğan Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimiz və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi" mövzusunda;

**5 dekabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Masallı rayonu üzrə qazılığının təşkilatçılığı ilə "Ulu Öndər və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Zəngilan RİH-in təşkilatçılığı ilə Sumqayıt şəhəri ərazisində yerləşən Zəngilan rayonu 5 nömrəli tam orta məktəbində "Tarix, mədəniyyət və din" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba RİH-in təşkilatçılığı ilə Quba rayonunda "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in təşkilatçılığı ilə Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Tərtər RİH-in təşkilatçılığı ilə rayonun Hüsənli kəndində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab rayonunda "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Tovuz RİH-in təşkilatçılığı ilə Tovuz rayonunda "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Şirvan ŞİH-in təşkilatçılığı ilə Şirvan şəhərində "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Lək kənd tam orta məktəbində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;



**6 dekabr** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Zəngilan RİH-in təşkilatçılığı ilə Sumqayıt şəhəri ərazisində yerləşən Zəngilan rayonu 15 nömrəli tam orta məktəbində "Dini dözümlülük və birgəyaşayış mədəniyyəti" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Şimal regional mərkəzi və İkinci Nügədi kəndi "Molla Hud" məscidi dini icmasının təşkilatçılığı ilə "Ailə institutunun gücləndirilməsi: məişət zorakılığının qarşısının alınmasında hüquqi və dini aspektlər" mövzusunda;

**7 dekabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Media Mərkəzinin birgə təşkilatçılığı ilə "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Şəki RİH-in təşkilatçılığı ilə Şəki şəhər 14 saylı tam orta məktəbində "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və "Höccət İbn Həsən məscidi dini icması"nın təşkilatçılığı ilə Suraxanı Gənclər Evində "Dini radikalizm və ekstremizmlə mübarizədə hər kəs sayıq olmalıdır" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Gənclər Evi Sosial Xidmət Müəssisəsinin təşkilatçılığı ilə "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və QMİ-nin Salyan rayonu üzrə qazılığının təşkilatçılığı ilə "Ulu Öndər və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH və QMİ-nin Sabirabad rayonu üzrə səlahiyyətli nümayəndəliyinin təşkilatçılığı ilə "Ulu Öndər və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab rayonu Pərvanlı kənd M.Rahim adına tam orta məktəbində "Dini radikalizm və ekstremizmin təhlükələrindən yeniyetmə və gənclərin qorunması" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Abşeron Olimpiya İdman Kompleksində və Xırdalan şəhəri "Zirvə" idman klubunda "Gənc idmançıların müxtəlif dini təriqətlərin ekstremizm və ayrı-seçkilik çağırışlarının təsirlərindən qorunması" mövzusunda;

**8 dekabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qobustan rayonunda A.Qayıblı adına 3 saylı tam orta məktəbində "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda;

**11 dekabr** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Zəngilan RİH-in təşkilatçılığı ilə Sumqayıt şəhərində yerləşən Zəngilan rayonu 23 nömrəli tam orta məktəbində "Dünyəvi təhsil, dini düşüncə və mənəviyyat məsələləri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və müvafiq dövlət qurumlarının birgə təşkilatçılığı ilə Qubada "Heydər Əliyev İli" çərçivəsində "Azərbaycançılıq ideologiyasının formalaşmasında Heydər Əliyev dühası: milli-mənəvi dəyərlər" mövzusunda;

**12 dekabr** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Qazax RİH-in təşkilatçılığı ilə Qazax rayonu Şahnabad Nəsibov adına Sarıvəlli kənd tam orta məktəbində "Dini radikalizmin təhlükələri, narkomaniya, erkən nikah və onun fəsadları" mövzusunda;

**13 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Balakən rayonunun Rauf Hədisov adına Yeni Şərif kənd tam orta məktəbində "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm

davamı səh. 14

# QISA-QISA

əvvəli səh. 13

siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Narkomaniyaya qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş Dövlət Humanitar Kollecinin birgə təşkilatçılığı ilə Ağdaş rayonunda "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasında dini icmaların rolu" mövzusunda;

**14 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala rayonu Aşağı Tala kənd 3 №-li tam orta məktəbində "Ulu Öndər Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Bərdə rayonunun Lənbəran kənd məscidində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə Qax rayonunun Qaxbaş kənd 2 saylı tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Göyçay RİH təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması", "Erkən və yaxın qohumlar arası nikahın mənfi təsirləri" və "Gender bərabərliyinə maneə olan amillər" adlı mövzularında; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhərində Musiqi Kollecində "Məişət zorakılığının qarşısının alınması" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in təşkilatçılığı ilə rayonun Balçılı kənd C.Nazarov adına 1 nömrəli tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda;

**15 dekabr** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Ucar şəhər 1 saylı liseydə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar "Heydər Əliyev: xalqımızın böyük xilaskarı" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı RİH və Dağlıq Şirvan Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Daşkəsən RİH-in təşkilatçılığı ilə rayonun Bayan kənd M.Mustafayev adına tam orta məktəbində "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Xətai RİH-in təşkilatçılığı ilə rayonun 194 nömrəli tam orta məktəbində "Həmrəylimiz gücümüzdür" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Zərdab RİH-in təşkilatçılığı ilə rayonda "Zərdab rayonunda mövcud dini durum və dini durumla bağlı problemlər" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Kəlbəcər RİH-in təşkilatçılığı ilə rayonun Gəncə şəhərində yerləşən Kəlbəcər rayonunun 10 nömrəli tam orta məktəbində "Dini radikalizm və ekstremizmin yarada biləcəyi fəsadlar" mövzusunda;

**19 dekabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Naftalan şəhər Gənclər və İdman Sektorunun təşkilatçılığı ilə Uşaq Musiqi Məktəbində "Milli-mənəvi dəyərlərin təbliğində Ulu Öndər Heydər Əliyevin rolu" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Qazax RİH-in təşkilatçılığı ilə Qazax rayonu Musa Həsənov adına Birinci Şıxlı kənd tam orta məktəbində "Dini radikalizmin təhlükələri, narkomaniya, erkən nikah və onun fəsadları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Ucar RİH-in təşkilatçılığı ilə şəhər 4 saylı tam orta məktəbində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda;

**20 dekabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Siyəzən RİH-in təşkilatçılığı ilə rayon İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyada "Sağlam gələcək üçün zərərli vərdişlərə qarşı birləşək!" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in təşkilatçılığı ilə rayonda "Qızların təhsildən yayınması və erkən nikahın qarşısının alınmasında din xadimlərinin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və Ombudsmanın Şimal Regional Mərkəzinin təşkilatçılığı ilə rayonda "Korrupsiyaya qarşı mübarizə hər



birimizin vətəndaşlıq borcudur" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Salyan RİH-in təşkilatçılığı ilə rayonda "Dini radikalizm və onun təzahür formaları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Göyçay RİH təşkilatçılığı ilə şəhər 1 saylı tam orta məktəbində "Narkomaniya: səbəbləri və ona qarşı mübarizə yolları" mövzusunda;

**21 dekabr** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Ucar RİH-in təşkilatçılığı ilə şəhər 3 saylı tam orta məktəbində "Uşaqların humanizm və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi-psixoloji aspektləri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Qax RİH-in təşkilatçılığı ilə şəhər E.Babayev adına 4 saylı tam orta məktəbində "Milli dövlətçiliyin möhkəmlənməsi. Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlər" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Füzuli RİH-in təşkilatçılığı ilə rayonda "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Daxili Qoşunların təşkilatçılığı ilə "N" saylı hərbi hissədə "Heydər Əliyev İli" çərçivəsində "Azərbaycançılıq ideologiyası milli birliyimizin əsası kimi" mövzusunda;

**22 dekabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı RİH-in təşkilatçılığı ilə İsmayıllı Dövlət Humanitar və Texnologiya Kollecində "Məişət zorakılığın qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in təşkilatçılığı ilə rayonda "Dini fanatizm, radikalizm, ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın və Müdafiə Nazirliyinin birgə Tədbirlər Planına uyğun olaraq DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin "N" saylı Hərbi Birləşməsinin təşkilatçılığı ilə Müdafiə Nazirliyinin Qubadlı rayonunda yerləşən "N" saylı hərbi hissəsində "Dini radikalizm və ekstremizmə qarşı səmərəli mübarizənin təşkili" mövzusunda;

**25 dekabr** – DQİDK-nın və Müdafiə Nazirliyinin birgə Tədbirlər Planına uyğun olaraq DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin "N" saylı Hərbi Birləşməsinin təşkilatçılığı ilə Müdafiə Nazirliyinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində "Milli dövlətçiliyin qorunmasında milli-mənəvi dəyərlərin rolu" mövzusunda;

**26 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, Zaqatala rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsi və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə Zaqatala rayonu Əliabad qəsəbəsi 1 №-li tam orta məktəbdə "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" çərçivəsində "Doğulanlar arasında cins nisbətinin pozulmasının əhalinin demoqrafik sturukturuna təsiri və abortların reproduktiv sağlamlığa zərəri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Qax rayon Zərnə kənd tam orta məktəbində "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Korrupsiyaya qarşı Mübarizə Fondunun regional nümayəndəliyinin təşkilatçılığı ilə Gəncə şəhərində "Korrupsiyaya qarşı mübarizə" mövzusunda;

**27 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və rayon Gənclər Evinin birgə təşkilatçılığı ilə "Korrupsiyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Qəbələ RİH-in təşkilatçılığı ilə Qəbələ şəhər "Cümə" məscidində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Zərdab RİH-in təşkilatçılığı ilə Zərdab rayonunda "Milli-mənəvi dəyərlərin gənclər arasında təbliği" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə 2023-cü ilin yekunlarına dair din xadimləri ilə görüş; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı RİH-in təşkilatçılığı ilə "Korrupsiyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağcabədi Pedaqoji Kollecində "Korrupsiyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Tovuz Dövlət Sosial-İqtisadi Kollecində "Korrupsiyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Ucar RİH-in təşkilatçılığı ilə Ucar şəhər "Cami" məscidində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin DQİDK ilə birgə Tədbirlər Planına əsasən 10 və 11 saylı cəzaçəkmə müəssisələrində "Milli dövlətçilik və mənəvi dəyərlərimiz" mövzusunda;

**28 dekabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən RİH-in təşkilatçılığı ilə Balakən şəhəri Vətən Müharibəsi Qəhrəmanı Amin Novruzov adına Humanitar və Texniki təmayüllü liseydə "Ulu Öndər Heydər Əliyev və həmrəyliyimiz" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Göyçay RİH-in təşkilatçılığı ilə Göyçay rayonunda "Ulu Öndər Heydər Əliyev və həmrəyliyimiz" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Şəki RİH-in təşkilatçılığı ilə Şəki şəhər mərkəzi "Cümə" məscidində "Ulu Öndər Heydər Əliyev və həmrəyliyimiz" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Korrupsiyaya qarşı Mübarizə Fondunun regional nümayəndəliyinin təşkilatçılığı ilə Goranboy rayonununda "Korrupsiyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Korrupsiyaya qarşı Mübarizə Fondunun regional nümayəndəliyinin təşkilatçılığı ilə Samux rayonununda "Korrupsiyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Yevlax RİH-in təşkilatçılığı ilə "Korrupsiyaya qarşı mübarizə" mövzusunda;

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə milli müstəqilliyimizin qorunub saxlanılmasında və dəyərlərimizin təminatında Ulu Öndər Heydər Əliyevin əvəzsiz rolundan, eləcə də Prezident İlham Əliyevin apardığı uğurlu siyasətdən bəhs olunub. Bildirilib ki, azərbaycançılıq ideologiyası milli dövlətçiliyimizin inkişafında mühüm rola malikdir. Azərbaycançılıq dünya azərbaycanlılarını milli maraqlarımız ətrafında birləşdirməklə yanaşı, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafında vacib faktor kimi çıxış edir.

Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışan natiqlər qeyd ediblər ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Natiqlər məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayaraq bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs ediblər. Gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəminə toxunublar.

Tədbirlərdə həmçinin narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından, ölkəmizdə mövcud olan tolerantlıq ənənələrindən də bəhs olunub.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR MƏLUMATLARI

**«Cəlilabad şəhəri «İmam Hüseyn» məscidi» dini icması**

Qeydiyyat tarixi: 26 may 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 360

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Talıblı Mirzəli Mirəzizxan oğlu, Qəhrəmanov Qəhrəman Mətləb oğlu, İbadov Əlisahib Şaban oğlu, İbadov Umudəli Şaban oğlu, Güləliyev Abuzər Güləli oğlu, İbadov Əligüşad Şaban oğlu, Turabov Həsənqulu Həsənxan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İsmayılov Elşad Əcəbəli oğlu, İbadov Elməddin Şamil oğlu, Novruzov İsa Pöhrüz oğlu, İbadov Vüqar Telman oğlu, İbadov Şamil Əlisa oğlu, Əliyev Mehman Yadulla oğlu, İsmayılova Zivər Gülməmməd qızı, Əmişov Mübariz Rəzzaq oğlu, Nurullayev Eldar Zəkulla oğlu, Kazımov Məmmədəli Qürbət oğlu, Süleymanov Vidadi Yadulla oğlu, Babayev Nizami Cəbrayıl oğlu, Cahangirov Vaqif Hacıağa oğlu, Əmiraslanov Xıdır Almaz oğlu, İbadova Natəvan Umudəli qızı, İbadova Yenigül Qədirağa qızı, Əbilov Ramin Sabir oğlu, Həsənov Soltanağa Məlik oğlu, Əhmədova Şəfiqə Mehdi qızı, Nəsirov Fəraim Nüsrət oğlu, Salmanov Ədalət Salman oğlu, Mirzəyev Ağahüseyn Sərhəng oğlu, İbadov Ağaisa Əlisa oğlu, Məmmədov Sabir Meyiş oğlu, Məmmədov Elşən Bəhlul oğlu, İbadov Telman Əlisahib oğlu, Quliyev Təhməz Baloğlan oğlu, Babaşov Fəxrəddin Səfər oğlu, Əliyev Rza Ramiz oğlu, Adıyev Elişad Astan oğlu, Şəkərov Vüsal Hacalı oğlu, Rufullayev Əliastan Calal oğlu, Əmiraslanov Əfqan Xıdır oğlu, Nəsirov Buludxan Hətəm oğlu, Muradova Pürüzə Əlif qızı, Məmmədov Tehranxan Zeynal oğlu, Musayev Ramiz Çaşı oğlu, Soltanov Tofiq Mirəli oğlu, Soltanov Mirəli Abas oğlu, Quliyev Rahim Hacıağa oğlu, Rufullayev Fariz Əliastan oğlu, Əliyeva Surə Nüsrət qızı, Həsənli İlqar İbadət oğlu, Əliyev Ərzulla Əkbər oğlu, Bəşirov Zakir Hacıağa oğlu, Yaqubov Söhrab Sabir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Talıblı Mirzəli Mirəzizxan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

İsmayılov Elşad Əcəbəli oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 01 dekabr 2023-cü il

**«Masallı rayonu Aşurlu kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 148

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Teymurov Şahdigar Yadigar oğlu, Ağayev Asim Aydın oğlu, Cəfərov Həsən Kazım oğlu, Əsədov Qafar Fətəli oğlu, Babayev Cahangir Fayaz oğlu, Cəfərov Rais Subhan oğlu, Rzayev Vuqar Şiri oğlu, Rəhimov Elbar Vəli oğlu, Ağayev Valeh Bəndi oğlu, Hüseynov Xəlil Vəli oğlu, Quliyev Elşad Vəliağa oğlu, Ağayev Zeynal Ulduz oğlu, Rzayev Cəbrayıl Ramik oğlu, Əliyev Aqil Adil oğlu, Həsənov Mustafa Ağarza oğlu, Abbasov Seymur Təvəkkül oğlu, Cabbarov Ədalət Kitabulla oğlu, Mikayılov Elşad Salman oğlu, Əhmədov Vilayət Qılman oğlu, Həsənov Calal Mustafa oğlu, Babayev Fərail Firudin oğlu, Eyvazov Cəlil Vəli oğlu, Əhədov Əlövsət Mahmud oğlu, Qulamov Şakir Aşur oğlu, Məmmədov Fərhad Baloğlan oğlu, Məcidov İbrahim İbrahim oğlu, Quliyev Əbdülkərim Eynəli oğlu, Məmmədov Ramis Məmmədəli oğlu, Eyvazov Arif Hüseyn oğlu, Rzayev Ramik Nəcəf oğlu, Musayev Qabil Rasif oğlu, Məmmədov Seyrab Ramiz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 01 dekabr 2023-cü il

**«Yardımlı rayonu Vəlixanlı kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 02 avqust 2021-ci il
Qeydiyyat №-si: 100121D – 941

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhədova Cəmilə Əhmədağa qızı dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Hüseinov Şəhriyar Şabi oğlu, Hüseinova Aysel Rüstəm qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 dekabr 2023-cü il

**«Qobustan rayonu Təklə kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C – 681

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bayramov Alı Bayramalı oğlu, Abdulxalıqov Abdul Qaraca oğlu, Mürsəlov Şörbət Hacı oğlu, Ataliyev Bəxtiyar Qara oğlu, Şikarov Ağa Abasalı oğlu, Əhmədov İsmayıl Nurəhməd oğlu, Məlikov Məmmədağa Əliağa oğlu, Ağamaliyev Saday Xəlil oğlu, Binyətov Qazəhməd Gülbala oğlu, Səfərov Ağalar Səfər oğlu, Cəbrayılov Şamil Bilal oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Hüseyinov Tələt Allahverdi oğlu, Məhərrəmov Xanəhməd Məhərrəm oğlu, Məhərrəmov Fəxrəddin Misirxan oğlu, Qədirov Ziyafət Heybət oğlu, Nəsirov Məzahir Nəsir oğlu, Abdulxalıqov Əlibaxış Abdul oğlu, Abdulxalıqov Eyvaz Əlibala oğlu, Binyətov Paşa Məmməd oğlu, Müslümov Əyyub Ağaqulu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 20 dekabr 2023-cü il

**«Lənkəran rayonu Hirkan qəsəbə məscidi» dini icması**

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C – 717

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Novruzova Saray İlyas qızı dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Dəyişikliklərin qeydiyyat tarixi:21 dekabr 2023-cü il

**«Balakən rayonu Kortala kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 01 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 39

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bayramov Ədilxan Məhəmməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qalayçiyev Mütəllif İsrafil oğlu, İsmayılov İsmət Rasul oğlu, Butdayev İsmayıl İzrayıl oğlu, Pirməmmədov Telman Məhəmməd oğlu, Heravasov Elşad Eldar oğlu, Ganzayev Habil Sədrəddin oğlu, Duquşov Rəşad Cuma oğlu, Ramazanov Alim Cəmil oğlu, Heravasov Nurumuhma Şəfi oğlu, Gondolov Anar Nazim oğlu, Ramazanov Cəmil Cəmaləddin oğlu, Abdullayev Akif Abdulla oğlu, Əliyev Şahruddin Yusif oğlu, İbrahimov Ramiz Həsrətəli oğlu, Abbasova Ziyafət İsrayıl qızı, Abbasov Məhəmməd Cuma oğlu, Kosayev Rəşad Qurban oğlu, Osmanov Famil Rizvan oğlu, Xəmmədov Natiq Xəlil oğlu, Salihov Fərman İslam oğlu, Sofiyev Başir Məhəmməd oğlu, Osmanov Rövşən İsa oğlu, Pirməmmədov Məhərrəm Rəcəb oğlu, İsayev Elşən Dinəli oğlu, Bayramlı Elman Qureyşin oğlu, Əfəndiyev İsmayıl İsmixan oğlu, Gondolov Vüqar Nazim oğlu, Əfəndiyev Yusif Famil oğlu, Qaracayev Ömər Mollaibrahim oğlu, Ziyadov Muhamməd Emin Həbib oğlu, Osmanov Nazim Rizvan oğlu, Kosayev Sücəddin Qurban oğlu, Əfəndiyev Famil Abdulla oğlu, Butdayev Ramil Məhəmməd oğlu, Baydarov Elvin Telman oğlu, Mikayılova Leyla Vaqif qızı, Mərdənov Əfqan İsmayıl oğlu, Mikayılov Vüsal Şöyüb oğlu, Butdayev Ramazan İsmayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 22 dekabr 2023-cü il

**«Ağsu şəhəri "Nuran Xatun" məscidi» dini icması**

Qeydiyyat tarixi: 01 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100110A1 – 166

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhmədov Feyruz Gəray oğlu, Səmədov Zakir Heydər oğlu, Vahidov İxtiyar Ağalı oğlu, Səmədov Düldül Mirzəcan oğlu, Rzayev Vəli Cəfər oğlu, Məmmədov Rafiq Ağəmehdi oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Şükürov Yusif Əlicəfər oğlu, Həmidov Umud Ehtiram oğlu, Nuriyeva Nuridə Qüdrət qızı, Nuriyev Emil İlqar oğlu, Aliyev Vüqar Baba oğlu, Səmədzadə Yusif Müşviq oğlu, İslamova Natəvan Ələddin qızı, Mehbalıyev İlqar Ağamahmud oğlu, Aliyeva Zümrüd Hacağa qızı, Həsənov Mehman Möhübbət oğlu, İsrəfilof Tural Çingiz oğlu, Hacıyev Cəmil Xəlil oğlu, Bəşirzadə Səbunə Nadir qızı, Bəşirzadə Bəşir Toğrul oğlu, Mürsəlov Ziyad Allahverdi oğlu, Cəbrayılova Nəzakət Zinhar qızı, İmamalıyev Teymur Xanbala oğlu, Səmədova Şamama Vaqif qızı, Məhərrəmli Elşən Ağamirzə oğlu, Bəhrəmov İslam Harın oğlu, Qurbanov Sadiq Sahib oğlu, Abdullayev Pərviz Malik oğlu, Hacıyeva Heyran Məmməd qızı, Mürsəlov Nicat Ağasən oğlu, Alıyeva Aysel Vüqar qızı, Abdullayev Rəşad Nadir oğlu, Seyidov Eldar Rasim oğlu, Nuriyev İlqar Paşa oğlu, Hüseyinzadə Şəhriyar Sakit oğlu, Mecidov Musa Eynulla oğlu, Bəhrəmova Aşa Mirpaşa qızı, Veysov Rövşən Yusif oğlu, Əmirov Nizaməddin Əzizbək oğlu, Osmanov Cavid Cəmil oğlu, Bayramlı Qoşqar Eyvaz oğlu, Məmmədzadə Yusif Azər oğlu, Süleymanlı Nicat Novruz oğlu, Şükürova Gülyaz Məlik qızı, Şükürova Gülay Əkrəm qızı, Həmidzadə Ayaz Rasim oğlu, Hacıyeva Böyükxanım Tərbiz qızı, Cavadova Raifə Hüseyin qızı, Cavadov Yusif Ədalət oğlu, Məlikzadə Ziya Əliheydar oğlu, Məlikzadə İlahə Əli qızı, Cavadov Ədalət Gülhəsən oğlu, Cavadova Şövkət Əliəkbər qızı, Baxışov Zaur Polad oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 dekabr 2023-cü il

**«Qax rayonu Tasmalı kəndi «Cümə» məscidi» dini icması**

Qeydiyyat tarixi: 09 mart 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 246

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şabanov Ziyavuddin Şaban oğlu, Həşimov Oruc Mənəf oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədov Cumaəli Məmməd oğlu, Salehov Sadəddin Ziyəddin oğlu, Balıyev Nəriman Camaləddin oğlu, Şahmərdanov Qurbanəli Məmmədəli oğlu, Rəhimov Rəhim Tapdıq oğlu, İsmayılov Əbülfət Mehrəli oğlu, Məmmədov Haqverdi İdris oğlu, Baxışov Vəzahir Nəsib oğlu, Məmmədov Hikmət Hacı oğlu, İsmayılov Güloğlan İsmayıl oğlu, Süleymanov Eynulla Əlibala oğlu, Məmmədov Həmzət Hacı oğlu, Abdullayev Nadir Lətif oğlu, Abdurahmanov Rasim Bəybala oğlu, Məmmədov Elmar Haqverdi oğlu, Sərdarov Aydın Kamil oğlu, Osmanov Qərib Zahid oğlu, Haqverdiyev Elşən Aslan oğlu, Arazov Rafik Şamil oğlu, Yasıbəyov Murad Mahmud oğlu, Şabanov Qədim Zabit oğlu, Həbilov Sahil Cabbar oğlu, Orucov Akif Oruc oğlu, Məmmədov Musavəddin Cahangir oğlu, Abdullayev Fazil Lətif oğlu, Kərimov Cəbi Nurməhəmməd oğlu, Omarov Yusif Əsədullah oğlu, Məmmədov Vəfadar Kamali oğlu, Xəlilov Akif Həsən oğlu, Baliyev Cəmaləddin Bali oğlu, Ştayev Əlövsət Xalid oğlu, Ağakişiyev Eldar Sadəddin oğlu, Nəzirov Ramazan Əmrullah oğlu, Süleymanov Anar Nizami oğlu, Şahmərdanov Ülfət Məmmədəli oğlu, Yusifov Nazim Yusif oğlu, Səlimov Sərvər Orucəli oğlu, Orucov Şahin Musa oğlu, Məmmədova Xalidə Qeyis qızı, Orucova Könül Şirinbəy qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Rəhimov Tapdıx Şaban oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Məmmədov Elmar Haqverdi oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 dekabr 2023-cü il

**"Hacıqabul şəhəri Xilə məscidi" dini icması**

Qeydiyyat tarixi: 21.09.2006-cı il
Qeydiyyat №-si: 1306H1-359

"Hacıqabul şəhəri Xilə məscidi" dini icması təsisizlərinin 08.12.2023-cğ il tarixli, 01 nümrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 21 dekabr 2023-cğ ildə qeydə alınıb.

CƏMİYYƏT və DİN
№ 12 (386) DEKABR 2023-cü il

## SANTA-KLAUS DÜNYANIN BÜTÜN QİTƏLƏRİNDƏ MİLYONLARLA HƏDİYYƏ PAYLAYIB



Santa-Klaus (Şaxta Baba) katoliklərin Milad bayramı ilə əlaqədar dünyanın bütün qitələrini gəzərək təxminən 6,7 milyon hədiyyə paylayıb.

Bu barədə Santa-Klausun hərəkət istiqamətini izləyən Şimali Amerika Qitəsinin Aerokosmik Müdafiə Komandanlığı məlumat yayıb. Onun yerini müəyyən etmək üçün radar sistemlərindən, peyklərdən və döyüş təyyarələrindən istifadə edilir.

Ənənəyə uyğun olaraq, Santa-Klaus dekabrın 24-də doqquz maralın çəkdiyi sehrli kirşə ilə dünya səyahətinə çıxır. O, hazırda ABŞ-nin qərb hissəsini gəzir.

Qeyd edək ki, Milad bayramının baş personajının hərəkət istiqamətini izləmək ənənəsi 1955-ci ildə başlayıb.

## PAKİSTANLA ÇİNİ BİRLƏŞDİRƏN «DOSTLUQ YOLU»



Karakorum şosesi boyunca gedən yol bir vaxtlar İpək Yolu, bu gün isə Çin ilə Pakistan arasındakı dostluq və əməkdaşlıq simvolu olaraq qəbul edilir.

Çinlilər bu yolu "Dostluq Yolu" adlandırırlar. Bu magistral Karakorum şosesi Pakistanı Çinlə birləşdirir.

Yolun tikintisi 1959-cu ildə başlanıb və 27 illik tikintidən sonra tamamlanıb. Bu yol Karakorum, Himalay və Hindu Kusdakı üç dağ boyunca 1300 kilometr uzanan inanılmaz mühəndislik nümunəsidir.

## GECƏ SAATLARINDA SÜNİ İŞIQ PSİXİKAYA ZƏRƏRLİ TƏSİR EDİR



Monaş Universitetinin nəzdindəki Psixoloji Elmlər Məktəbinin tədqiqatçıları, Avstraliyanın "Terner" Beyin və Psixi Sağlamlıq İnstitutundakı həmkarları ilə birlikdə gecə saatlarında süni işığa məruz qalmağın narahatlıq, bipolyar pozuntu və depressiya kimi zehni xəstəliklərin inkişaf riski ilə əlaqəli olduğunu müəyyənləşdiriblər.

Tədqiqatın nəticələri "Nature" jurnalında dərc olunub.

Tədqiqatda 86 772 nəfərin Britaniya Biobankından götürülmüş məlumatlarından istifadə edilib. Alimlər yuxunun keyfiyyəti, fiziki fəaliyyət, tədqiqatda iştirak edənlərin zehni sağlamlığı və onlara müxtəlif növ təbii və süni işığın təsiri barədə məlumatları təhlil ediblər.

Nəticələrə əsasən, kompüter və noutbuk ekranları, elektrik lampaları və gecə işığı yayan qurğular kimi qeyri-təbii mənbələrdən çox miqdarda işıq almağın narahatlıq, bipolyar və depressiv xəstəliklərin, həmçinin posttravmatik stress pozğunluğunun inkişaf riskinin artması ilə əlaqəli olduğu ortaya çıxıb. Mütəmadi olaraq süni işığa məruz qalan və az təbii işıq alan insanların öz-özünü məhvə sürükləyən hərəkətlərə meylli olduqları da aşkar edilib.

Gün işığının isə, əksinə, zehni sağlamlıq üçün faydalı olduğu sübuta yetirilib. Gün ərzində çox miqdarda təbii işığa məruz qalan insanlarda depressiya riskinin 20 faiz azaldığı məlum olub.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Yanvar - 2024)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:37 | 08:04 | 12:44 | 15:44 | 17:40 | 18:46 |
| 2 | 06:37 | 08:04 | 12:44 | 15:45 | 17:41 | 18:47 |
| 3 | 06:37 | 08:04 | 12:45 | 15:45 | 17:42 | 18:47 |
| 4 | 06:37 | 08:04 | 12:45 | 15:46 | 17:43 | 18:48 |
| 5 | 06:37 | 08:04 | 12:46 | 15:47 | 17:44 | 18:49 |
| 6 | 06:37 | 08:04 | 12:46 | 15:48 | 17:45 | 18:50 |
| 7 | 06:37 | 08:04 | 12:47 | 15:49 | 17:46 | 18:51 |
| 8 | 06:37 | 08:04 | 12:47 | 15:50 | 17:47 | 18:52 |
| 9 | 06:37 | 08:03 | 12:48 | 15:51 | 17:47 | 18:52 |
| 10 | 06:37 | 08:03 | 12:48 | 15:52 | 17:48 | 18:53 |
| 11 | 06:37 | 08:03 | 12:48 | 15:53 | 17:49 | 18:54 |
| 12 | 06:37 | 08:03 | 12:49 | 15:54 | 17:50 | 18:55 |
| 13 | 06:37 | 08:03 | 12:49 | 15:55 | 17:52 | 18:56 |
| 14 | 06:37 | 08:02 | 12:50 | 15:56 | 17:53 | 18:57 |
| 15 | 06:36 | 08:02 | 12:50 | 15:57 | 17:54 | 18:58 |
| 16 | 06:36 | 08:01 | 12:50 | 15:59 | 17:55 | 18:59 |
| 17 | 06:36 | 08:01 | 12:51 | 16:00 | 17:56 | 19:00 |
| 18 | 06:35 | 08:01 | 12:51 | 16:01 | 17:57 | 19:01 |
| 19 | 06:35 | 08:00 | 12:51 | 16:02 | 17:58 | 19:02 |
| 20 | 06:35 | 07:59 | 12:52 | 16:03 | 17:59 | 19:03 |
| 21 | 06:34 | 07:59 | 12:52 | 16:04 | 18:00 | 19:04 |
| 22 | 06:34 | 07:58 | 12:52 | 16:05 | 18:01 | 19:05 |
| 23 | 06:33 | 07:58 | 12:52 | 16:07 | 18:03 | 19:06 |
| 24 | 06:33 | 07:57 | 12:53 | 16:08 | 18:04 | 19:07 |
| 25 | 06:32 | 07:56 | 12:53 | 16:09 | 18:05 | 19:08 |
| 26 | 06:32 | 07:55 | 12:53 | 16:10 | 18:06 | 19:09 |
| 27 | 06:31 | 07:55 | 12:53 | 16:11 | 18:07 | 19:10 |
| 28 | 06:30 | 07:54 | 12:54 | 16:12 | 18:08 | 19:11 |
| 29 | 06:30 | 07:53 | 12:54 | 16:14 | 18:10 | 19:12 |
| 30 | 06:29 | 07:52 | 12:54 | 16:15 | 18:11 | 19:14 |
| 31 | 06:28 | 07:51 | 12:54 | 16:16 | 18:12 | 19:15 |

## HƏR DÖRD İSVEÇLİDƏN BİRİ TƏNHALIQDAN ƏZİYYƏT ÇƏKİR



İsveçin İctimai Səhiyyə İdarəsinin statistikası göstərir ki, ölkədə gənc insanlar tənhalıqdan əziyyət çəkirlər, xüsusən də kişilər bu hissi qadınlara nisbətən daha çox keçirirlər.

Ölkənin İctimai Səhiyyə İdarəsi tərəfindən 2022-ci il üçün aparılan sorğunun nəticələri bunu sübut edir. Qurum bu cür sorğuları iki ildən bir keçirir.

"Oğlanların və kişilərin necə olmaları ilə bağlı kifayət qədər ciddi standartlar mövcuddur. Bu standartların bir hissəsi ondan ibarətdir ki, onlar öz hissləri barədə danışmamalıdır. Statistikaya görə, qadınlar psixi xəstəliklərlə bağlı kömək üçün daha çox müraciət edirlər", - deyə İctimai Səhiyyə İdarəsinin tədqiqatçısı Hillevi Buş qeyd edir. Onun sözlərinə görə, yaşı 16-dan 29-dək olan respondentlərin 27 faizi təsdiqləyirlər ki, onların öz fikirlərini bölüşəcəyi və ya etibar edəcəyi insan yoxdur.

Mütəxəssislər tənhalığı üç hissəyə ayırırlar. Sosial tənhalıq hansısa sosial qrupa mənsubluğun olmaması ilə bağlıdır. Emosional tənhalıq ondan əmələ gəlir ki, ən məhrəm fikir və hissləri bölüşmək üçün heç kim yoxdur. Eksiztensional tənhalıq isə ətrafdakıların sənə qarşı anlayışının olmamasına əsaslanıb.

İctimai Səhiyyə İdarəsi isveçlilərin tənhalıq problemini hökumətin tapşırığı ilə araşdırır. Tədqiqatın nəticələrinə görə, tənhalıqla bağlı xüsusi strategiya 2025-ci ilin fevralında işlənib hazırlanacaq.

Hillevi Buşun sözlərinə görə, tənhalıq həm fiziki, həm də psixi xəstəliklə əlaqədar ola bilər. O, depressiya və təşvişə, eləcə də orqanizmin uzun müddət stresə məruz qaldığı təqdirdə ürək-damar xəstəliklərinə gətirib çıxara bilər.

Ekspert qeyd edir ki, tənhalıq hissi Milad və Yeni il kimi bayramlarda daha təsirli və məşəqqətli ola bilər.

### Yadigar söz

**Platon**

*Yaxşı əməllər bizə güc verir və başqalarını da yaxşı işlər görməyə ruhlandırır.*

Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894